N İ G A R V Ə L I Y E V A

N I G A R V E L I Y E V A

A Z Ə R B A Y C A N C A - İ N G İ L İ S C Ə

İ D İ O M A T İ K L Ü Ğ Ə T

A Z E R B A I J A N I – E N G L I S H

D I C T I O N A R Y O F I D I O M S

Azərbaycanca - İngiliscə İdiomatik Lüğət əsaslı nəşrdir. Lüğətə idiomatik söz, ifadə, ibarə, atalar sözləri və zərb məsəlləri daxil edilmişdir.

Lüğəti professor, filologiya elmləri doktoru

Nigar Çingiz qızı Vəliyeva

tərtib etmişdir

Lüğət ali məktəb tələbələri, müəllimlər, aspirantlar, dissertantlar, tərcüməçilər, jurnalistlər, diplomatlar, informasiya işçiləri və digər iş adamları, ümumiyyətlə, ingilis dilini mükəmməl öyrənmək istəyən geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ÖN SÖZ MÜƏLLİFDƏN

Dil xalqın ən böyük sərvətidir.

H.Ə.Əliyev

Xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir –
bundan da güclü olan eynilik təsəvvür etmək çətindir.

V.Humboldt

“Gənclərimiz nə qədər çox dil bilsələr, bir o qədər zəngin dünyagörüşə malik olacaqlar. Bu, müasir dünyanın tələbidir.” Bu sözlər dilini, vətənini, millətini onun bütün maddi və mədəni dəyərlərini sevməkdə hamıya nümunə olan, əbədi ümummilli liderimiz *H.Ə.Əliyevə* məxsusdur.

Son illərdə Azərbaycan dili xalqımızın əbədi lideri H.Əliyevin səyi nəticəsində beynəlxalq münasibətlər sistemində rəsmi dövlət dili kimi böyük nüfuz qazanmışdır. Azərbaycan dilinin nüfuzlu təşkilatlarda işlənməsinə böyük səlahiyyət verilməsi görkəmli dövlət başçısının çoxillik gərgin fəaliyyətinin təzahürüdür.

Azərbaycan dilinin təşəkkül tarixi çox qədimə, miladdan əvvəlki dövrlərə çatır. Onun bugünkü səviyyəsi xalqımızın dünyanın ən qədim xalqlardan biri olduğunu xəbər verir. Dil vasitəsilə xalqın gələcəyə inamı artır. Azərbaycan dilinin çoxəsrlik mədəniyyət tarixində və dil sferasında xalq müdrikliyinin inikası olan, öz dərin və kəsərli fikir ifadə etmək gücü ilə səciyyələnən frazeoloji vahidlər xüsusi yer tutur.

Yazılı ədəbiyyatda frazeologizmlərin qədimliyinə xalqın malik olduğu leksik sərvətin toplandığı yazılı abidələr şahidlik edir. Frazeologizmlər müəyyən ictimai mühitin, bu və ya başqa dövrün məhsulu olub, dilin daşıyıcılarının həyat və məişət şəraitinin dəyişməsi ilə əlaqədar olaraq dəyişir, təkmilləşir, sabitləşir, və nəhayət, qəlblərə düşür, yaddaşda möhkəm kök salır.

Xarici dillərin tədrisi Vətənimiz üçün strateji əhəmiyyət kəsb edən dövlət məsələsidir. Azərbaycan dövləti müstəqil siyasəti yeridərək, beynəlxalq təşkilatlarda təmsil olunur. Beynəlxalq səviyyədə siyasət yeritmək, ideoloji mübarizəyə hazır olmaq, respublikamız ətrafında yaradıla bilən informasiya blokadasını aradan qaldırmaq baxımından xarici dilləri yüksək səviyyədə bilən milli kadrların hazırlığı Vətən uğrunda döyüşlərdə silaha sarılmaq qədər vacibdir. Hər bir dildə, o cümlədən xarici dillərdə lazımi səviyyədə danışmaqdan ötrü, dilin başqa aspektləri ilə yanaşı, onun frazeoloji tərkibini də mükəmməl bilmək lazımdır. Qrammatika dilin tacıdır. İdeomatiklik və leksik baxımından nitq zəngindir və ifadəlilik imkanları son dərəcə genişdir.

Doğrudur, son illərdə müxtəllif sistemli dillərin frazeoloji leksikasının araşdırılmasına diqqət artmışdır. Lakin bilavasitə irihəcmli frazeoloji lüğət tərtib olunmamışdır. İlk dəfə olaraq Azərbaycan və ingilis dillərində idiomatik vahidlər toplanmış, təsvir edilmiş, bir-birindən uzaq olan və müxtəlif sistemli dillərə məxsus bu leksikləşmiş vahidlər sistemə salınmışdır. Azərbaycan dilinin digər dünya dilləri ilə, o cümlədən ingilis dili ilə birbaşa əlaqələrinin artdığı indiki dövrdə bu istiqamətli tədqiqatların səmərəsi və əhəmiyyəti danılmazdır.

Frazeoloji birləşmələr, atalar sözləri və zərb məsəllərin müxtəlif dillərdə çox zaman tam qarşılığı olmadığı üçün, onların öyrənilməsində müəyyən çətinliklər qarşıya çıxır. Bu cəhətdən hazırda iki xarici dil öyrənən tələbələr üçün həmin lüğətin xüsusi praktik əhəmiyyəti vardır.

İngilis dili uzun illərdir ki, Azərbaycanın ali və orta məktəblərində tədris olunur. Bu dildə radio və televiziya verilişləri aparılmaqla yanaşı, müxtəlif səpkili monoqrafiyalar və vəsaitlər çap olunur. Son zamanlar ingilis dilinə respublikamızda ehtiyac və maraq güclənmişdir. Bu da Azərbaycan respublikasının dövlət müstəqilliyi qazanması ilə əlaqədardır. Müstəqil dövlət kimi, onun qarşısında xarici dövlətlər və beynəlxalq təşkilatlarla birbaşa ünsiyyətdə olmaq, onlarla müxtəlif xarakterli ticarət, iqtisadi və diplomatik əlaqə saxlamaq və xalq mənafeyinə uyğun işlər görmək vəzifələri durur. Belə

bir dövrdə respublikamızda xarici dilləri, xüsusilə ingilis, rus, alman, fransız və s. dillərini mükəmməl bilən, ingilisdilli hər hansı bir ölkə və ya ölkə daxilindəki əyalətlərdə dilin işlənmə özünəməxsusluğundan incəlikləri ilə baş çıxarmağı bacaran mütəxəssislərə, diplomatlara və digər iş adamlarına, informasiya işçiləri və jurnalistlərə böyük ehtiyac duyulmaqdadır. Bu baxımdan ingilis dili ölkəmizdə yalnız xarici dil kimi deyil, diplomatiya dili, siyasət dili, işgüzar əlaqələr dili kimi öyrənilməlidir. Həmin məqsədə çatmaq üçün müxtəlif sistemli dillərdə idiomatik vahidlərin müqayisəli linqvistik təhlilini aparmaq vacibdir. Həmin birləşmələrin milli dillərdə verilmə prinsiplərini tədqiq edib öyrənmək lazımdır.

Hər dilin bütün sferalarında xalqın mənəvi həyatı və tarixi əks olunur. Nəsillər dəyişir, bir-birini əvəz edir, lakin hər nəslin həyat dərsləri dil vasitəsilə gələcək nəslə irs olaraq qalır. Xalqın mənəvi həyatının bütün izləri ana dilində mühafizə olunur. Hər bir dili uzun əsrlər boyu xalq yaratmış, inkişaf etdirmiş və nəsildən nəslə çatdırmışdır. Dil xalqın keçmişini, bu gününü və gələcəyini canlı şəkildə birləşdirən vasitədir.

Hazırda ana dilimiz digər rəsmi və tanınmış dövlət dilləri ilə yanaşı işlənir, dünya xalqları arasında tanınır. Bu cəhət Azərbaycan dilinin xarici dillərlə müqayisəli şəkildə tədqiqi üçün müəyyən stimul yaradır, müxtəlif sistemli dillər arasındakı ümumi və fərqli cəhətlərin müəyyənləşdirilməsi üçün geniş imkanlar açır.

XX əsrin sonu, XXI əsrin əvvəllərində dünyanın dil mənzərəsinə nəzər salsaq, görərik ki, müasir dillər arasında ən geniş yayılan dil ingilis dilidir. İngilis dili, eyni zamanda, dünyanın bir çox ölkələrinin (Böyük Britaniya, Amerika Birləşmiş Ştatları, Kanada, Avstraliya, Yeni Zelandiya, Puerto Rika və başqalarının) dövlət dilidir. Yaponiya, Filippin, Çin, Hindistan, Cənubi Afrika və s. ölkələr də öz dilləri ilə yanaşı, ingilis dilindən də istifadə edir. İngilis dili Amerika qitəsində yaşayan üç yüz milyondan artıq əhalinin əsas dilidir. İngiltərə, Kanada, Avstraliya və Yeni Zelandiyada ana dili səviyyəsindədir. İngilis dili, eyni zamanda, beynəlxalq miqyasda keçirilən

konfrans, simpozium, seminarlar dili olmaqla, həm də Birləşmiş Millətlər Təşkilatında işlədilən rəsmi dildir. Dünyanın elə bir ölkəsi tapılmaz ki, orada ingilis dilini öyrənməsinlər. Bu ölkələri bir-birindən yüzlərlə kilometrlik məsafə, hətta qitələr, okeanlar ayırır. İngilis dilində danışan ölkələrin vətəndaşları başqa-başqa millətlərə, irqlərə mənsub olduğundan onlar dildən istifadə edərkən fonetik və qrafik cəhətdən sözləri müxtəlif cür tələffüz edir və müxtəlif şəkildə yazırlar, hətta cümlələrə, ifadələrə də müdaxilə edirlər. Hər bir ölkənin, millətin və irqin tarixi inkişafından, sosial iqtisadi vəziyyətindən, coğrafi mövqe, təsərrüfatı, məişəti və həyata baxışının xüsusiyyətindən, milli adət-ənənəsindən, fizioloji keyfiyyətlərindən irəli gələn cəhətlər dildə bu və ya başqa şəkildə özünü göstərir. Bütün bunlar dilin çevikliyi, mütəhərrikliyi və s. ingilis dilində müxtəlif ifadə və birləşmələrin yaranmasına səbəb olur. Bu cür məcazi ifadə və birləşmələrin yaranmasının yol və üsulları hazırda ingilis dilşünaslarının da məşğul olduğu vacib məsələlərdəndir.

Beynəlxalq dillərdən olan ingilis və rus dillərini öyrənənlər dilin fonetikasını, qrammatikasını öyrənməklə yanaşı, həm də zəngin söz ehtiyatına malik olmağa çalışırlar. Dil öyrənənlər adətən bədii nitqdə maneə ilə rastlaşmadan uğur qazanırlar. Lakin bildiyimiz kimi, dilin lüğət tərkibini təşkil edən sözlərin həqiqi mənaları ilə yanaşı, məcazi mənaları da çoxluq təşkil edir. Hətta vurğulamaq zəruridir ki, hal-hazırda dilin lüğət tərkibində bir sıra sözlər öz həqiqi mənalarını itirib, məcazi mənada daha çox işlənirlər. Elə bu səbəbdən də bəzən dili öyrənənlər rast gəldikləri sözün və ya birləşmənin idiomatik ifadə olduğunu bilmədiklərindən çaşıb qalır, idiomlu ifadə ilə desək, məəttəl qalıb pis vəziyyətə düşürlər.

Xalq şüuru, xalq həyatı ilə yoğrulmuş, dövrlərin süzgəcindən süzülüb gələn, büllurlaşmış fikirlər toplusu olan frazeologizmlər, atalar sözü və zərb məsəllərin semantik inkişafı nəzərə alınmasa, onları bəzən başa düşmək, şərh etmək çətinlik törədər.

Frazeologizm, atalar sözü və zərb-məsəllərdə xalqın həyat tərzi, adət-ənənələrinin izləri, sevinci və kədəri, məhəbbət və nifrəti, düzlüyü, qeyri-reallığı yaşayır, xalqın obrazlı təfəkküründün, milli ruhunun ictimai-siyasi və fəlsəfi fikrinin sinkretik formasını özündə əks etdirir. Məhz buna görə də bunlar milli ruhlu, milli səciyyəli sintaktik vahidlər sayılır. Bu vahidlərin mənası dərin, forması yığcam və gözəldir. Bunlar xalqın əsrlər boyu yaratdığı tükənməz mənəvi sərvətidir. Bunlarda sözlərin düzülüşündə bir məna uyarlığı, səlislik, ahəngdarlıq, musiqilik, ifadəlilik vardır.

Müasir Azərbaycan və ingilis dillərində idiomatik vahidlərin müqayisəli araşdırılması bir neçə cəhətdən əhəmiyyətlidir. Əvvəla, müxtəlif sistemli dillərdə frazeoloji birləşmələrin yaranması prosesinin araşdırılması dillərin həmin istiqamətdəki qanunuyğunluqlarını müəyyənləşdirməyə imkan verir. İkinci, belə birləşmələrin tədqiqi dilin və onun leksik sisteminin semantik inkişafı haqqında düzgün təsəvvür əldə etməyə kömək edir ki, bu da dilçilik nəzəriyyəsi baxımından həmişə maraq doğurur.

Frazeoloji birləşmələrin daxili məna quruluşunun və xarici strukturunun, onların ayrı-ayrı dillərdə yeri və mövqeyinin açıqlanması, tərcümə olunma imkanlarının öyrənilməsi, milli və beynəlmiləl mahiyyətinin şərhi, onların işlənmə xüsusiyyətlərinin və istifadə olunma sahələrinin təhlili həm nəzəri, həm də praktik cəhətdən aktuallıq kəsb edir.

Azərbaycan Respublikası dünya dövlətləri ilə iqtisadi, siyasi, elmi-mədəni əlaqələrini genişləndirir. Hər bir sahədə, xüsusən ordu quruculuğumuzun inkişafında xarici dillərə, ələlxüsus ingilis dilinə böyük ehtiyac duyulur.

Frazeologiya – müəyyən dildəki frazeoloji vahidlərin emosional və ekspressiv səciyyəli sabit söz birləşmələrinin məcmusu; frazeoloji birləşmələrin struktur – semantik xüsusiyyətlərini müasir və tarixi baxımdan öyrənən dilçilik bəhsidir. Dilçilik şöbəsi kimi frazeologiya sovet elmində XX əsrin 50-ci illərində inkişaf etməyə başlamışdır.

Frazeoloji birləşmələr xalqın həyat və məişəti, adət və ənənələri, əxlaqi görüşləri ilə bağlı yaranır. Frazeoloji vahidlər dilin yaradıcısı və daşıyıcısı

olan xalq tərəfindən yaradılır, yeni frazeoloji vahidlərin formalaşması üçün mənbə rolunu oynadıqda hətta dilin əsas lüğət fonduna daxil olur. Frazeoloji ifadələrdə sözlər üzvi surətdə birləşərək, vahid bir məfhum ifadə edən monolit birləşməyə çevrilir. Frazeoloji birləşmələr milli səciyyəsi ilə fərqlənir və başqa dilə eyni ilə tərcümə edilə bilmir; belə hallarda bu və ya digər frazeoloji birləşmənin müqabil dildəki ekvivalentini tapmaq lazım qəlir.

İnsan nitqini frazeoloji birləşmələr, atalar sözləri və zərb məsəllərsiz təsəvvür etmək çətindir. Odur ki, min illərin sınağından keçib gələn frazeoloji birləşmələr, atalar sözləri və məsəllər bu gün də fikrin təbii və obrazlı ifadəsində mühüm rola malikdir. Frazeoloji birləşmələr, atalar sözləri və zərb məsəllər xarici dilləri daha yaxşı öyrənmək istəyən hər bir kəs üçün xüsusi əhəmiyyət kəsb edir.

Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, ilk dəfə olaraq ingilis, Azərbaycan və rus dillərində frazeoloji birləşmələr toplanmış, sistemə salınmış, təsvir edilmiş, bir-birindən uzaq olan və müxtəlif sistemli dillərə məxsus belə leksikləşmiş vahidlər tipoloji-linqvistik cəhətdən təhlil edilmiş, ümumi və fərqli əlamətlər aşkara çıxarılmışdır.

Təqdim olunmuş lüğətdən həm xüsusi, həm də ümumi dilçilikdə, eləcə də müqayisəli (qarşılaşdırma) istiqamətdə aparılan tədqiqatlarda istifadə edilə bilər. Həmin lüğətdən müvafiq praktik və nəzəri seminarlarda, leksikologiyanın xüsusi kurslarında, tərcümə nəzəriyyəsində, müqayisəli tipologiya fənnində, başqa leksikoqrafik tədqiqatlarda, lüğətlərin hazırlanmasında, tərtibində, azərbaycandilli auditoriyada ingilis və rus dillərinin tədrisində, tələbələrlə və dilçi aspirantlarla auditoriyadan kənar təlim prosesində gərəkli material rolunu oynaya bilər. Bu lüğət, ümumiyyətlə, frazeologiyayaratma və frazeologiyadan istifadə nəzəriyyəsinin inkişafı üçün qiymətlidir.

Frazeoloji birləşmələrin yaranmasının əsas mənbələrin tədqiqini apararkən, belə nəticəyə gəlmək olar ki, frazeologizmlər: insanın daxili - mənəvi aləmini, mədəniyyətini, əmək fəaliyyəti sahələrini inikas etdirən

ifadələrin yeni məna kəsb etmə prosesini tarixi faktlar əsasında gerçəkləşdirir. Frazeoloji birləşmələrin linqvistik cəhətdən təhlili frazeologiyanın formalaşma və inkişafının mühitdən, insanların maddi və mənəvi həyatından asılı olduğunu əyani şəkildə nümayiş etdirir.

Oxuculara təqdim olunan Azərbaycanca - İngiliscə İdiomatik lüğət idiomatik söz birləşmələr, idiomatik (sabit) ifadələr, idiomatik ibarələr, habelə atalar sözləri və zərb məsəllər əsasında tərtib olunmuşdur.

Azərbaycanca - İngiliscə İdiomatik Lüğətinin səciyyəvi cəhətlərinin izahına keçməzdən əvvəl, ümumiyyətlə, idiomatik lüğətlərinin bəzi linqvistik xüsusiyyətlərini nəzərdən keçirək.

İdiomatik birləşmələrin bir dildən digər dilə çevirilməsi onun kütləviləşməsinə, mənaca beynəlxalq əhəmiyyət kəsb etməsinə səbəb olur. Lüğətdə həmin vahidlərin tərcümə və ya kalka edilməsi əsas iki məqsədlə bağlı göstərilmişdir: frazeoloji vahidin ekvivalentinin tapılması; orijinaldakı fikrin, ruhun ekzotikliyini saxlamaq.

Tədqiqat prosesində aydın oldu ki, müxtəlifsistemli dillərdə frazeoloji paralellik mövcuddur. Müxtəlif dillərdə sözlərin analoji dəyişkən birləşmələrinin eyni cür yenidən mənalandırılması ayrı-ayrılıqda, yaxud birgə, toplu halında metaforik, metonomik köçürmə və obrazlı müqayisə xətti üzrə baş verir. Həmçinin qeyd etmək zəruridir ki, hər iki dildə frazeologizmlər strukturca rəngarəngdir. Komponentlərinin sintaktik əlaqəsinin səciyyəsinə görə bunların bir qismi söz birləşməsi şəklində, bir qismi isə qrammatik cəhətdən formalaşmış cümlə quruluşunda işlədilir. Azərbaycan və ingilis dillərində frazeoloji vahidlərində struktur dəyişiklik müxtəlif vasitələrlə yaranır: frazeologizmlərin komponentlərindən birinin öz sinonimi ilə əvəz edilməsi, frazeologizmlərdə köməkçi komponentin yaranması, frazeologizmlərin strukturunda baş verən ixtisarlar, frazeologizmin tərkibinə yeni sözün əlavə edilməsi.

Mövcud frazeoloji lüğətləri həcminə görə bir-birindən çox fərqlənirlər: mindən iyirmi beş minə qədər və daha çox frazeoloji vahidləri əhatə edən

frazeoloji lüğətləri məlumdur. Təqdim olunan Azərbaycanca - İngiliscə İdiomatik Lüğətin həcmi tərtibçi tərəfindən rəngarəng frazeoloji vahidlərin işlənmə hallarının məcmusundan ibarətdir.

Müxtəlif sistemli dillərdə frazeoloji vahidlərin liqvistik təhlili zamanı funksional – kontekstual xüsusiyyətlərini tədqiq edərkən, belə nəticəyə gəldik ki, onlar şifahi nitqdə və yazılı kontekstdə, ümumxalq danışıq dilində, bədii ədəbiyyatda və publisistik yazılarda işlənir, qəzet və jurnal kütləvi məlumat vasitəsi kimi nitq fəaliyyətində mühüm yerlərdən birini tutur və digər mətn növlərindən bəzi xüsusiyyətlərinə görə fərqlənir. Ümumi həcmdə çap məhsullarının böyük bir hissəsi qəzet və jurnalların payına düşür. Yazılı nitqin mühüm bir hissəsi də qəzet mətnlərində əks olunur. Qəzet təkcə kütləvi oxucuya deyil, həm də kütləvi müəllifə malikdir. Bunun nəticəsində qəzet dilin daşıyıcısı olan kollektivin dilinə güclü normalaşdırıcı təsir göstərir, dildə müəyyən normanın sabitləşməsinə imkan yaradır.

Bundan başqa, müəlliflər öz dillərini müəyyən dərəcədə oxucuların gündəlik danışıq dilinə yaxınlaşdırmağa çalışaraq, tez-tez normadan uzaqlaşır, dil vahidlərinin nitqdə qeyri-normativ, yeni istifadə formalarından faydalanırlar. Qəzet bədii mətnlərdə və normativ sorğu kitablarında qeyd olunmağa imkan tapmayan dil faktlarını və dildə baş verən bütün dəyişiklikləri, demək olar ki, ani qeydə almağa imkan verir. Beləliklə, qəzet mətnləri ən yeni dil məlumatları mənbəyi ən yeni dil məlumatları mənbəyi rolunu oynayır. Qeyd etməliyik ki, ancaq frazeoloji vahidlərin siyahısı tədqiq olunan dilin bütün zənginliyini saxlamağına təminat verə bilər.

Doğrudan da, bəzi dilçilər qeyd etdiyi kimi, indiyə qədər dilçilikdə "lüğət vahidi" anlayışı dəqiq müəyyənləşdirilməmişdir. Məsələn, türk dillərində sözlərin nitq hissələrinə görə təsnifi və söz-formaların hər hansı bir leksemə aid edilməsi bir çox hallarda tamamilə mübahisəli hesab olunur. Mürəkkəb felləri quruluşlarına görə oxşar söz birləşmələrindən ayırmaq üçün hamı tərəfindən qəbul olunmuş ümumi qaydanın olmaması ilə əlaqədar göstərilən konstruksiyalar komponentlər üzrə müstəqil yazılmış oldu. Mötəbər standart

lüğət olmadan təhlili mümkün olmayan frazeoloji vahidlər üçün də analoji qayda tətbiq olundu.

İngilis dilinin yalnız frazeoloji birləşmələrinin yox, eləcə də atalar sözləri və zərb məsəlləri də ora aid etmişik, müasir Azərbaycan və ingilis dilləri ilə müqayisədə bir sıra əlamətlər aşkar edilib. Məsələn, biz bütün frazeoloji birləşmələri üç qrupa ayırmışıq. Birinci qrupa elə frazeoloji birləşmələr aid etmişik ki, onların hər üç dildə tam ekvivalentləri var, həm obraz, həm məna, həm də leksik tərkib cəhətdən. İkinci qrupa elə frazeoloji birləşmələr aid etmişik ki, onların obraz və leksik tərkibi bir-birindən qismən, yaxud tamamilə fərqlənən, lakin mənaca uyğun gələn. Üçüncü qrupa isə yalnız bir dilə, ya ingilis, ya da Azərbaycan dilinə mənsub olan, dildə müvafiq qarşılığı və ya analoqu olmayan frazeoloji birləşmələridir.

İlk təcrübənin davamı kimi, üçdilli frazeoloji lüğətin əhəmiyyəti çox böyükdür. Onun çapı bu sahədə aparılacaq araşdırmaların daha da genişlənməsi üçün təkan ola bilər.

Bu lüğət ingilis və rus dillərini öyrənənlərə, ali məktəb tələbələrinə, magistr və dissertantlara, filoloq, diplomat və tərcüməçilərə, jurnalist və iş adamlarına, frazeologiya sahəsi ilə maraqlanan mütəxəssislərə, yazılı və şifahi tərcümə ilə məşğul olan şəxslərə, mədəniyyət işçilərinə çətinlik törədə bilən dil hadisələrini elmi-praktik şəkildə müəyyənləşdirmək, bununla da onları müəyyən şəraitdə düşdükləri dil çətinliyindən qurtarmağa kömək məqsədilə yazılmışdır.

Müxtəlif sistemli dillərin materialları əsasında yaradılmış bu lüğətin dilçiliyin frazeologiya sahəsinə maraq dairəsinin formalaşmasında rolu böyükdir. Bu lüğət bədii dilin normalaşdırılması, eləcə də nitq mədəniyyəti məsələləri ilə əlaqədar tədqiqatlarda da böyük əhəmiyyət kəsb edir.

Tərtibçi lüğət haqqında rəy, təklif, arzu və tənqidi qeydlərini göndərəcək oxuculara qabaqcadan minnətdarlığını bildirir.

Lüğətdə İstifadə Edilmiş Şərti İşarələr

Müasir Azərbaycan və ingilis dillərindəki frazeoloji birləşmələr, atalar sözü və məsəllərin oxşar və fərqli cəhətlərini nəzərə almaqla üç qrupa ayırmaq olar və bu məsələ lüğətin tərtibində aşağıdakı şərti işarələrdən istifadə edilməklə öz əksini tapıb:

1. = (bərabər) işarəsi. Bu işarə həm məna, həm obraz, həm də leksik tərkib etibarilə hər üç dildə, demək olar ki, tam eyniyyət təşkil edən atalar sözlərin qarşısında işlədilmişdir. Yəni bu qrupa aid olan atalar sözləri Azərbaycan dilinə öz ekvivalentləri vasitəsilə tərcümə olunur. Məsələn: Nə əkərsən, onu da biçərsən. = As you sow, you shall mow.

2. – (tire) işarəsi. Bu işarə obraz və leksik tərkib etibarilə bir-birindən qismən, yaxud tamamilə fərqlənən, lakin mənaca uyğun frazeoloji birləşmələr, atalar sözləri və məsəllərin qarşısında işlədilmişdir. Bu növdən olanlar analoq adlandırılır. Bu qrupdan olan atalar sözləri Azərbaycan dilinə öz analoqları vasitəsilə tərcümə olunur. Məsələn: Eyibsiz gözəl olmaz. – Every man has his fault.

3. * (ulduz) işarəsi. Bu işarə yalnız bir dilə, yəni ya Azərbaycan, ya da ingilis dilinə mənsub olan, müqayisə edilən dillərdə müvafiq qarşılığı və ya analoqu olmayan frazeoloji birləşmələrin, atalar sözləri və məsəllərin qarşısında işlədilmişdir. Məsələn: Mənim səndən gözüm su içmir. A man may love his house well without riding on the ridge.

Lüğətdə İstifadə Edilmiş İxtisarlar

Amer. **– İngilis dilinin Amerikan variantı – American English**

Arab. **- Ərəb dilindən – from Arabic**

Austr. **– İngilis dilinin Avstraliya variantı – Australian English**

Fars. **– Fars dilindən – from Persian**

Fr. **– Fransız dilindən – from French**

Ital. **– İtalyan dilindən**

Lat. **– Latın dilindən – from Latin**

Scot. **– Şotlandiyaya xas olan ifadə – this expression is used in Scotland**

Turk. **– Türk dilindən – from Turkic**

Abbreviations used in this dictionary

Cf. **– confer – müqayisə et**

etc. **– et cetera – and so on – və ilaxır**

fig. **– figurative – məcazi mənada**

i.e. **– id est – yəni, digər sözlə**

iron. **– ironical expression – istehzalı ifadə**

joc. **– jocular – zarafatyana**

Lit. **– literally – hərfi**

smth. **– something – nəsə, nə isə, bir şey**

LÜĞƏTİN TƏRTİBİNDƏ İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT VƏ LEKSİKOQRAFİYA MƏNBƏLƏRİ

LITERARY AND LEXICOGRAPHICAL SOURCES USED IN COMPILING THISDICTIONARY

Azərbaycan dilində:

1. Abasquliyev T. İngilis atalar sözləri və onların azərbaycanca, rusca qarşılıqları, Bakı, Elm, 1981.

2. Abdullayev S., Seyidəliyev N. Almanca - azərbaycanca - rusca frazeoloji lüğət, Bakı, 2004.

3. Azərbaycan dilinin izahlı lüğəti, IV cilddə, Az.SSR Elmlər Akademiyası nəşriyyatı, Bakı, Elm,1964 -1987.

4. Azərbaycan Sovet Ensiklopediyası, IX c., Bakı, 1986.

5. Baxşıyev H. Azərbaycan dilinin müxtəsər frazeologiya lüğəti, Bakı, Bakı Universiteti, 2004.

6. Əhmədova X., Rəhimov İ. Azərbaycanca - ingiliscə, ingiliscə - azərbaycancamüxtəsər frazeoloji lüğət, Bakı, Azərtədrisnəşr, 1962.

7. Həmidov İ., Axundov B., HəmidovaL.Azərbaycanca – rusca, rusca – Azərbaycanca atalar sözləri və zərbi-məsəllər lüğəti, Bakı, Təhsil, 2009.

İngilis dilində:

8. A dictionary of English proverbs in modern use, M., 1985.

9. A dictionary of Modern English Usage, New York, Oxford University Press, 1985.

10. Brewer E.C. Brewer's Dictionary of Phrase and Fable, London, 1971.

11. Collins Cobuild Dictionary of phrasal verbs, The University of Birmingham, Great Britain, 1989.

12. Collins V. H. A book of English idioms, Longmans, Green and Co., 1958.

13. Courtney Rosemary. Longman Dictionary of Phrasal Verbs, Specialized, Harlow: Longman LTD, Moscow, Russkiy Yazyk, 1986.

14. Cowie A. Mackin R., Mc Caig I.R. Oxford Dictionary of Current Idiomatic English, v. 1,2., London, 1975, 1983.

15. Cowie A.D. The Treatment of Collocations and Idioms in learner's Dictionaries, Applied Linguistics, 1981, № 2, 3.

16. English-Russian phraseological dictionary, M., 1967.

17. Fowler H.W. A Dictionary of Modern English usage, 2-nd edition, Oxford: OxfordUniversity Press, 1986.

18. Frederik T. Wood. English Prepositional Idioms, M., 1968.

19. Freeman William. A concise dictionary of English Idioms, 3-rd edition, London, Hodder and Stoughton, 1985.

20. Ginzburq R.S. English – Russian dictionary of verbal collocations, 2-nd edition, M., 1996.

21. Glaeser, Rosemarie. On the Phraseology of Spoken English: The Evidence of Recurrent Word-Combinations, Phraseology. Edited by Cowie A.P. Oxford, Clarendon Press, 1998.

22. Glaeser, Rosemarie. The Stylistic Potential of Phraseological Units in the Light of Ganre Analysis. Phraseology. Edited by Cowie A.P. Oxford, Clarendon Press, 1998.

23. Gowers E. The Complete Plain Words, London, 1973.

24. Heaton J.B., T.W.Noble. Using Idioms, A learner's Guide – Prentice Hall, New York, London, Toronto, Sydney, Tokyo, 1987.

25. Hornby A.S., Ruse Ch. Oxford Student's Dictionary of Current English, Special edition for the USSR, Moscow, Oxford, Prosvesheniye Publishers, Oxford University Press, 1983.

26. Hony H.C. with the advice of Fahir Iz. A Turkish-English Dictionary, 2-nd edition, Oxford, Clarendon Press, 1967.

27. Löffer H., Goldman L. English synonyms and how to use them, Leipzig, Enzyklopadie, 1979.

28. Longman Dictionary of Contemporary English, Great Britain, Pitman Press, 1978.

29. Longman Dictionary of Phrasal verbs, Courney Rosemary, London, Longman, 1983.

30. Longman dictionary of Phrasal Verbs, Special edition, Harlow, Longman Group, M., «Russki yazyk», 1986.

31. Makkai A. Idiom Structure in English, The Hague – Paris, 1972.

32. Michael McCarthy, Felicity O'Dell. English Vocabulary in Use. CambridgeUniversity Press, Second Edition, 2002.

33. Nelson Th. Webster's Dictionary of the English Language, New Revised Edition for School, Home and Office, 1991.

34. Oxford Advanced Learner's Dictionary, Oxford University Press, 2005.

35. Oxford dictionary of current idiomatic English, Vol 1-2, Oxford, Oxford University Press, 1984.

36. Oxford Pocket English Idioms, Seidl J., Mc. Mordie W., Oxford, OxfordUniversity Press, 1992.

37. Oxford-Russian Dictionary, OxfordUniversity Press, Oxford, New York, 1995.

38. Partridge E.A. A Dictionary of catch phrases: British and American, from the 16-th century to the present day, Ed. by P. Beale, London, Routledge and Kegan Paul, 1985.

39. Practical English Dictionary, Holland Enterprises LTD, London, Printed in Cuba, 1990.

40. Simpson John, The concise Oxford Dictionary of Proverbs, Oxford, Oxford University Press, 1985.

41. Smith L.P. Words and Idioms, London, 1948.

42. Smith W.G. The Oxford Dictionary of English Proverbs, Oxford, 1970.

43. Swan Michael. Practical English Usage, Second Edition, Oxford, OxfordUniversity Press, 1980.

44. Syttel V.V. Colloquial English idioms, M., Prosv., 1971.

45. The New American Dictionary of Good English, United States of America, 1987.

46. The New Method English Dictionary by Michael Philip West, M.A., D.Phil and James Gareth Endicott, M.A., The third edition, Longmans, Green and Co., London, New York, Toronto.

47. The Oxford Guide to the English Language, Oxford, New York, Tokyo, Oxford University Press, First published 1984, Reprinted (with corrections) 1985.

48. Oxford Advanced Learner's Dictionary, Oxford, Oxford University Press, 8 th ed., 2010.

49. The phraseological dictionary, Macmillan Dictionary, Macmillan Publishing Co, Inc., New York, Collier Macmillan Canada, Inc. Manufactured in the United States of America, 1981, London, 1994.

50. The Penguin Pocket English Dictionary, Second Edition. Penguin Reference Books in association with Longman Group Limited, Made and printed in Great Britain by Cox and 104. Wyman Ltd, Reading, 1987, London, 1992.

51. Vizetelly Frank H. A desk – book of idioms and idiomatic phrases in English speech and literature, New York, Funk and Wagnalls Co.,1923.

52. Vladovskaya I.S. Colloquial English Phrases and Idioms, M., Higher School Publishing House, 1970.

53. Walshe I.A., Berkov V.P. Russian – English Dictionary of Winged Words, 1900 words approx, Moscow, Russky Yazyk, 1984.

54. Webster's new collegiate dictionary, 2-nd edition, USA, G. and C. Merriam Co publishers, 2000, 1214 p.

Rus dilində:

55. Адамчик Н.В. Англо-русский словарь, Мн.: Современный литератор, 2003.

56. Алёхина А.И. Идиоматика современного английского языка, М., В.Ш., 1982.

57. Англо-русский фразеологический словарь, 25000 фразеологических единиц, Издание 3-е, в 2 книгах, М., «Советская энциклопедия», 1967.

58. Аракин В.Д., Выгодская З.С., Ильина Н.Н. Англо-русский словарь, 19-е издание, стереотипное, Москва, Русский язык Медиа, 2004.

59. Буковская М.В., Вяльцева С.И., Дубянская З.И. Словарь употребительных английских пословиц, A dictionary of English proverbs in modern use, М., «Русский язык», 1985.

60. Квеселевич Д.И. Современный русско-английский фразеологический словарь. Modern Russian-English Dictionary of Idioms. Москва, Астрель – АСТ, 2002.

61. Модестов В.С. Английские пословицы и поговорки и их русские соответствия, М., Изд. 5-е, 2005.

62. Сейдл Дж., Макморди У. Идиомы английского языка и их употребление, М., В. ш., 1983.

63. Хорнби А.С., Буклет А.О. Конструкции и обороты английского языка, 2013.

64.Чейф Л. Уоллес. Значение и структура языка, Москва, Прогресс, 2005.

65.Человеческий фактор в языке, Языковые механизмы экспрессивности, Москва, Наука, 1991.

66. Чердынцева Т.З. Метафора и символы фразеологической единице, Метафора в языке и тексте, Москва, 1988.

67.Чернявская В.Е. Дискурс власти и власть дискурса. Проблемы речевого воздействия, Москва, 2005.

A Z Ə R B A Y C A N D İ L İ N İ N

Ə L İ F B A S I

Aa Bb Cc Çç Dd

Ee Əə Ff Gg Ğğ

Hh Xx Iı İi Jj

Kk Qq Ll Mm Nn

Oo Öö Pp Rr Ss

Şş Tt Uu Üü Vv

Yy Zz

- A -

A

A kateqoriyalı (ən əsas, vacib, yaxşı) **– A 1 / top hole / top notch / A number one /** *Amer.* **A No 1 / first rate / top rate** / *Cf.***the best, paramount, great, super, terrific** (very good, splendid, far-out)

ABAD

Abad kənd tüstüsündən bəlli olar. – *Lit.***A village is known by the barking of the dogs. /** *Cf.* Nothing will be hidden.

ABAN

Abanın qədri yağışda məlum olar. – Keep a thing seven years and you will find a use for it.

ABBASI

Abbasıdan bez sahı çıxardır. – Skim the cream off. / One gets the be-all and end-all by the sweat of his brow.

Abbasını bəyənməyən beş sahı çıxardar. – *Lit.* **Who does not like a coin, will get pound sterling.**

ABDAL

Abdal at mindi, özünü bəy saydı. – One comes of peasant stock and becomes prince (lord).

Abdaldan pasa olmaz, taxtadan masa. – Boor cannot be a lord.

ABIR

abır eləmək – to be ashamed (of) / to be confused (of) / to be embarrassed / to be put out of countenance / to feel shy / to be shy / to embarrass someone

abır gözləmək – to get decorous / to become decorous / to become decent / to hold one's tongue / not to lose one's honour / to dignity / to observe the proprieties

Abır harda, bərəkət orda. – Honour and justice are akin.

* **abır qoymamaq – 1.** *bax* **abır vermək; 2.**(bir kəsi biabır etmək) **– to disgrace / to dishonour**

abır vermək – to give someone a fine talking-to / to give someone a piece of one's mind / to bring someone to a sense of shame / to give it someone hot and strong / to give it someone good and hard / to give someone hell / to beat someone black and blue / to thrash someone black and blue / to put someone to shame / to make someone blush / to gibe (jeer) at someone or smth. / *Cf.***to throw smth. in someone's teeth**

abır-həya etmək – *bax***abır eləmək**

abır-həya gözləməmək – to offend the proprieties

abır-həya yoxdur (həya etmədən, vicdansızcasına) **– someone does not know what conscience is / he (she) has lost all shame / he (she) had the cheek (nerve) to do smth.**

abır-həyadan salmaq – to rake someone over the coals / to give someone hell / to give someone a good talking-to

abır-islahat qoymamaq – *bax***abır vermək**

abıra qısılmaq – *bax* **abır gözləmək**

abırdan düşmək – to loose honour / to loose dignity

abırdan salmaq – 1. *bax***abır qoymamaq; 2.** *bax***abır vermək; 3.** (bir kəsin zəhləsini tökmək) **– to be sick of smb. / to bother / to pester**

abır-həyadan salmaq – *bax***abır qoymamaq**

abıra salmaq – to get smth. into shape / to bring smth. up to scratch / to bring smth. to fruition (to finish, to complete smth.)

abrını almaq – to give a good dressing-down (hiding, licking) to someone / to give telling-off to someone / to give someone what-for / to give it hot to someone / to give someone a sound thrashing

abrını aparmaq – *bax***abrını almaq**

abrını əlinə vermək – *bax* **abır vermək**

abrını ətəyinə bükmək – *bax* **abır vermək**

abrını götürmək – *bax***abır vermək**

abrını göy əskiyə bükmək – *bax* **abır vermək**

abrını-həyasını almaq – *bax***abır vermək**

abrını-həyasını aparmaq – *bax***abır vermək**

abrını tökmək – *bax* **abır vermək**

abrını vermək – *bax***abır vermək**

Abırını yeyib, həyasını da belinə bağlayıb. – One is dead to shame. / One loses all sense of shame. / *Cf.* **Conscience was hanged long ago.**

abırlanmaq – *bax* **abır gözləmək**

abırlatmaq – to ask / to cause someone to reproach / to force someone to put to shame

Abırlı abırından qorxar, abırsız nədən qorxar? – A modest blushes, a shameless pales.

abırlı olmaq – to be decent / to be moral / to be decorous

abırlı paltar – a decent clothing

abırlılıq – a morality / a decorum

abırsız adam (alçaq adam) **– a bad actor / barefaced** (a shameless, indecent, impudent, bold man)

abırsız-abırsız(abırsızcasına) **– shamelessly / indecently / barefacedly / impudently / boldly**

* **abra düşmək – someone keeps in a very fitting manner / someone looks fittingly**

* **abra mindirmək – to bring someone in order**

abra salmaq – 1. *bax***abra mindirmək; 2.** *bax* **formaya salmaq**

abrı getmək – to be disgraced / to be dishonoured / to disgrace oneself / to demean oneself

abrı tökülmək –*bax* **abrı getmək**

* **abrına qısılmaq – 1.** *bax***abır eləmək; 2.** *bax* **abır gözləmək; 3. – to keep silent lest to abase oneself** (to feel shy, to be shy)

abrına-həyasına qısılmaq – *bax***abrına qısılmaq**

abrına sataşmaq – *bax***abır qoymamaq**

* **abrından keçmək – someone had to do smth. worthless** (to demean oneself)

abrını almaq (bərk danlamaq) **– to teach (to give) someone a good lesson / to call someone all the names under the sun / to give someone a fine talking-to / to give someone a piece of one's mind / to swear blue murder at someone / to give it someone hot and strong / to curse someone for all one is worth / to call someone all the names in the book / to give it someone good andhard / to give someone hell / to call someone over the coals / to curse someone up hill and down dale / to take someone over the coals / to give someone what for / to give someone beans / to curse someone like hell / to give someone a drop of sense / to teach someone a thing or two / to make someone see reason / to knock the nonsense out of someone's head / to swear like a bargee / to make the air blue / to give someone a proper dressing-down (thrashing, dusting, pounding, licking) / to put the heat on someone / to blow someone up / to give someone the works /** *Amer.* **to give someone a nice shake-up / let one have what-for**

* abrını aparmaq – to bash someone's ear / to give someone no peace (to bother, to make bored, to weary)

* abrını atmaq – not to feel a shy / not to be shy

abrını gözləmək – 1. *bax***abır eləmək; 2.** *bax* **abır gözləmək; 3.** *bax***abrına qısılmaq**

abrını gözləməmək – to behave with insolence / to offend the proprieties

abır-həyanı gözləməmək – *bax* **abrını gözləməmək**

abrını tökmək – to give it someone hot and strong / to give someone what for / to give someone a good talking-to / to give someone a dressing-down / to give someone a hiding / to give someone a good noser / to give someone a good telling-off / to give someone a wigging / to give someone a licking (to reproach someone)

abrını-həyasını tökmək – *bax***abrını tökmək**

abrını vermə (söyüb danlama) **– a scolding / rating / blowing-up**

abrını vermək – *bax***abrını tökmək**

ABİ-LEYSAN

abi-leysan kimi göz yaşı tökmək – to shed crocodile tears / to shed floods of tears / to be drowned in tears

ABİ-NEYSAN

abi-neysan kimi göz yaşı axıtmaq – *bax***abi-leysan kimi göz yaşı tökmək**

ABSOLYUT

absolyut çempion = * an overall champion (an absolute champion)

ABŞ

ABŞ-ın dövlət bayrağı – *Amer.* **the stars and stripes**

AC

Ac aman bilməz. – Hunger breaks stone walls.

Ac ayı oynamaz. – Hungry bear doesn't dance. / One is so hungry that his empty belly flaps. / One's belly cries cupboard.

Ac bayıra qaçar, yalavac evə girər. – Hunger is the best sauce. / Hunger breaks through stone walls.

Ac qal, topal qal, kör qal, fəqət torpaqsız qalma. – *Turk.***Aç kal, topal kal, kör kal, fakat topraksız kalma. = Be hungry, be lame, be blind, but never be without land. / Better die standing than live kneeling.**

Ac qalmaq borclu olmaqdan yaxşıdır. – To be hungry is better, than to be in debt.

ac qarına – on an empty stomach (belly) / without bite or sup (neither bite nor sup)

Ac qarına söhbət tutmaz. – Fine words butter no parsnips. / It is no use preaching to a hungry man. / The belly has no ears.

Ac qarına yatmaq it əzabıdır. – It is no dream when you are hungry.

Ac qazanar, tox yeyər. – One skims the cream. / One lives at someone's expenses.

Ac qılınca çapar. – Hunger is shameless.

ac qurd – a grasping man / an insatiable man

Ac qurd aslanı basar. – Hungry wolf is stronger than filling dog.

acolmamaq(kifayət qədər pulu olmaq) **– tokeepthewolffromthedoor**

Ac özünü oda vurar. – Hunger breaks stone walls.

Ac toxun üzünə baxmaqla doymaz. – Hungry nener be satisfied by watching the sated.

Ac toyuq yatar, yuxusunda darı görər. = Hungry hen dreams about millet. / A hungry man thinks only of bread. / A hungry belly has no ears.

Ac yatım, salamat yatım. – To be hungry is better, than to be in debt.

Aca nə halal, nə haram? – Modest is enough to hungry.

Acdan ummaq olmaz. – Beggar exacts nothing from beggar.

ACGÖZ

acgöz – 1. *bax***ac qurd; 2. a gluttonous / a grasping / an insatiable / a greedy man**

acgözlüklə aşırmaq (iştaha ilə yemək) **– to eat heartily / to eat ravenously / to eat smth. with great gusto / to eat smth. with the utmost zest / to shovel up food / to play knife and fork**

acgözlüklə oxumaq – to read avidly / to be an avid reader

ACI

acı-acı ağlamaq – to cry buckets

acı bağırsaq kimi uzanmaq – to creep by

Acı bağırsaq kimi uzanır. – It becomes prolonged.

acı dil – backbiter / slanderer / wicked / spiteful tongue

Acı dilin yarası qılınc yarasından pis olur. – Hard words break bones. / Many words cut more than swords.

acı göz yaşları – a banquet of brine / the bitter tears

acı həqiqət (xoşagəlməz məsələ, qəbul edilməsi ağır olan həqiqət)**– the bitter truth / the home truth** (usually a true but unpleasant fact about a person, told by somebody else) **/** *Cf.* **bitter pill to swallow** (something hard to accept, disappointment)

acı söz – 1. (kəskin söz, söyüş) **– a swear word / a strong language / a pretty strong word; 2.** (udmağa məcbur olunan təhqir) **– (to swallow) a bitter pill**

Acı sözü bir batman bal ilə yemək olmaz. – Hard words break one's heart.

Acı suala şirin cavab gözləmə. – Not wait a sweet answer to a bitter question.

acı tale – hard lines

acı zarafat – a hot one

acıdil – a sharp tongue

ACIĞA

acığa düşmək – to kick / to be stubborn / to spite someone/ to be obstinate

acığa salmaq – to cause action against someone / to cause counteraction (to irritate)

Acığı gələn su içər. – If you are angry drink some water.

acığı gəlmək – to vex at someone / can't stand

acığı soyumaq – *Lit.* **to change one's anger on favour (mercy) / to settle down** (to calm, to quiet)

acığı tutmaq – 1. to cross with someone / to be vexed (to be angry)**; 2.** (incikliyi büruzə verməmək) **– to bear (carry, have, nurse, owe) a grudge against someone / to bear someone a grudge / to have a down on someone**

acığı tutur – it makes one angry (wild, furious) / one feels annoyed (vexed)

acığım tutmur – to bear someone no grudge (malice) / to bear no ill-will / to overlook the old wrong

Acığın dövlətə zərəri var. – Anger is a bad adviser.

(bir kəsin) **acığına – 1. in someone's despite; 2.** (bir kəsin acığına demək, etmək, bir şeyi qəsdən etmək) **– to say (to do) smth. just to spite someone / with a thrust at someone / to be contrary**

acığından boğulmaq (son dərəcə əsəbi olmaq) – **to splutter with anger / hot under the collar** (extremely angry)

acığından gözü heç nə görməmək – to be blind with rage

acığından partlamaq – to flush with anger

acığından yanmaq – to burn with anger

acığını basmaq – to put one's own rage down

acığını çıxarmaq – to blow off at someone / to vent one's spleen on someone or smth. / to work off one's bad temper on someone or smth. / to get it off one's chest

acığını çıxmaq – *bax***acığını çıxarmaq**

acığını soyutmaq – to give vent to one's feelings

acığını ... (üstünə) tökmək – *bax* **acığını çıxmaq**

acığını tutdurmaq – to get upon someone's nerves / to jar upon someone's nerves / to provoke someone to scandal / to make tongue / to wag someone

acığını yemək – *bax***acığını basmaq**

ACIQ

acıq (hirs) **– a gnashing of teeth / a setting one's teeth**

acıq almaq – to take vengeance on someone

acıq çəkmək – *bax* **acığı gəlmək**

acıq çıxmaq – *bax***acıq almaq**

acıq vermək – 1. *bax* **acığa düşmək; 2.** *bax***acığını tutdurmaq; 3. to put someone's nose out / to tease / to excite someone / to stir up anger / to make trouble (for) / to do smth. out of spite**

acıqdan dəli olmaq – to get mad with rage / to be beside oneself / to be out of one's mind with worry / to be worried sick (to death) / to go crazy

acıqdan gözü heç nə görməmək – to be blind with rage

acıqdan özünə yer tapmamaq – to spite and to spurn / to feel restless / to be unable to keep still / to find no solace / not know what to do with oneself / to be out of one's wits with rage (to fret)

acıqdan partlamaq – to flust with anger

acıqdan yanmaq – to burn with anger

acıqdan zəncir çeynəmək – to blaze with indignation / to fly into a rage

acıqla (hirslə, qeyzlə, əsəbi halda) **demək – in a fit of anger** (irritation, temper) **/ in annoyance** (crossly, vexedly)

acıqla (hirslə, qeyzlə, əsəbi halda) **etmək – in annoyance** (anger, temper) **/ in a fit of anger** (irritation) **/ in hot blood** (angrily, heatedly)

acıqlanmaq – to see red (to become very angry)

ACIQLI

acıqlı-acıqlı (baxmaq) **– to look at someone silently, intently and maliciously**

acıqlı baxış – ascowl

Acıqlı başda ağıl olmaz. – Anger is a short madness.

Acıqlı dilənçinin torbası boş qalar. – Anger is a bad adviser.

acıqlısözlər – highwards

ACILAMAQ

acılamaq – tocome the acid / to sting someone / to wound someone / to taunt someone

ACILIQ

Acılıqdan yemək olmur, şirinlikdən atmaq olmur. – One cannot eat for its bitter and throw it for its sweet.

ACIMAQ

acımaq – to walk up an appetite

ACIN

Acın evində nə od olar, nə ocaq. – Beggar is beggar.

Acın gözü çörək tikəsində olar. – Hungry always see at bread.

Acın imanı olmaz, toxun - amanı. – Hunger teaches, fortune spoils.

Acın qarnı doyar, gözü doymaz. – One is very insatiable.

Acın qulağı kar olar. – A hungry belly has no ears.

ACINDAN

Acından ayaqyalın yatır. – A beggar can never be bankrupt. / A beggar may sing before the thief. / A beggar may sing before a foot-pad.

acından bağırsaqlarım bir-birinə yapışıb – one's empty belly flaps / one's empty belly cries cupboard

acından günorta duran (lüt, yoxsul) **– neither house, nor home / not a penny to bless oneself**

Acından günorta durur, bığını yağla burur. – A beggar may sing before a pickpocket.

acından köpük qusmaq (ac insan haqqında)**– to be dying of hunger / to have nothing to eat / to be as hungry as a hawk / to be as hungry as a wolf**

acından qarnı quruldamaq – *bax***acından köpük qusmaq**

Acından qarnına daş bağlayıb. – As hungry as a hawk.

Acından qurd qapır. – Hunger is the sauce.

acından ölmək – 1. (ac olmaq) – **to tighten one's belt / to be famishing; 2.** (dəhşətli dərəcədə yemək istəmək) **– someone can eat a horse**

Acından ölüb cənnətə getməkdənsə, toxundan ölüb cəhənnəmə getmək yaxşıdır. – *bax***Cənnətdə qul olmaqdansa cəhənnəmdə ağalıq etmək yaxşıdır.**

acından ürəyim siyrilib – one is so hungry that his empty belly flaps / *Cf.* **one's belly cries cupboard**

ACINI

Acını dadmayan şirinin qədrini bilməz. – Without troubles hasn't pleasure. / *Cf.* **Neither troubles, no pleasure.**

ACISINI

acısını almaq – to vent one's anger on someone / to wreak one's rage on someone / to pay someone back

acısını çıxarmaq – *bax* **acısını almaq**

ACISIZ

Acısız-ağrısız həyat olmur. – Every man must eat a peck of dirt before he dies.

ACIŞDIRMAQ

acış dırmaq – *bax***cır atına mindirmək**

ACİZ

(sizin) **aciz bəndəniz – your obedient servant**

Acizi vurmazlar. – Don't hit a man when he's down.

acizin qənimi – brave before a lamb, but a lamb before the brave / brave as a lion with a lamb / a big fish in a little pond / a big frog in a little puddle / a tritton among the minnows / hares may pull dead lions by the beard / a bully is always a coward

Acizin zalımı olmaz, zalımın zalımı olar. – One must come across someone other.

acizlərə divan tutulması – the massacre of the innocents / the slaughter of the innocents

acizliyini boynuna almaq (qorxmaq, çəkinmək, təslim olmaq) **– to play the coward / to be in a pretty funk / to show the white feather / to get cold feet / to turn white-livered / to cry craven**

ACQARINA

acqarına – on an empty stomach

ACLA

Acla əcəli yetən birdir. – Hunger breaks stone walls.

ACLIQ

aclığın öhdəsindən gəlmək (kasıbçılıqla mübarizə etmək, güclə dolanmaq)**– to keep the wolf from the door**

Aclıq ayıya darayı oxudar. – Hunger is the best sauce.

Aclıq adama oyun öyrədər. – *bax* **Acla əcəli yetən birdir.**

aclıq çəkmək (ac qalmaq) **– to be dying of hunger / to have nothing to eat / to be as hungry as a hawk** (a wolf)

aclıq hiss etmək – * to feel empty

Aclıq ilə toxluğun arası bir parça çörəkdir. – There is some difference between rich and poor.

aclıq olsun, kef olsun! – if we've got to do our bit, let's do it with a bang / if one is to die he'd make it good / *Cf.* **to go out in style**

Aclıq olsun - kef olsun. – *Cf.* **Despite there is nothing to eat, we have a good time.**

Aclıq zarafat deyil. – *Lit.***Hunger is not a jest. /***Cf.* **Hunger is a stiff task-master. / Hunger breaks stone walls. / Hunger has an imperative voice.**

Aclıqda darı çörəyi halvadan şirin olur. – When one is hungry any food is taste.

ACMIŞ

Acmış eşşək atdan yeyin gedər. – Hunger breaks stone walls.

Acmış qudurmuşdan betərdir. – Anger is a short madness.

AÇAR

Açar qıfıldan güclüdür. = Key is stronger than lock.

açaram sandığı, tökərəm pambığı – to empty the bag (to tell everything that one knows)

AÇMAQ

açdım sandığı, tökdüm pambığı – *bax* **taxçada-boxçada nə var açıb tökmək**

açıb ağartmaq – *bax***açıb ortalığa tökmək**

açıb ortalığa tökmək – to expose someone / to unmask someone / to show up / *Cf.* **to put light through someone / bring someone to light / to bring someone in (into) the open / to make known / to give publicity / to reveal one's secret** (to tell everything that one knows)

AÇIQ

açığa çıxmaq – *bax***açıqlığa çıxmaq**

açığı (düzü, vicdanla desək) **– to be fair / to be honest / to put it mindly**

açıq-açığına (dostcasına, səmimiyyətlə) **– to have a heart-to-heart talk with someone / to speak one's heart to someone / to unbutton one's soul / to talk without reserve**

açıq-açığına demək – 1. (heçbir şey gizlətmədən) **– to call things by their proper names / to give things their right names /** *Cf.* **to call a spade a spade / to call a pikestaff a pikestaff; 2.**(açıqcasına danışmaq) **– to empty the bag**

açıq-aşkarabazlığına – it goes without saying

Açıq ağız ac qalmaz. – Everyone has its own daily bread.

açıq alın (gen alın) **– lofty brow** (high forehead)

açıq alınla – 1. blamelessly / honestly / faultlessly; 2. to do smth. with an easy (clear) conscience

açıq-aşkar (hər sözü demək birmənalı, anlaşıqlı)**– it is as plain as a pikestaff / as any fool can see / it is as plain as day / it is as plain as daylight / it is as plain as the nose on your face /** *Cf.* **Even blind Freddie could see that / you don't have to be an Einstein to see that**

açıq-aşkaröz fikrini söyləmək (öz həyat mövqeyini açıqlamaq)**–** *Amer.***tostandupandbecounted**

açıq-aşkarabazdıq (açıq-aydın) **– to do smth. with all one's cards face up / to put all one's cards on the table** (to do, to act, to speak, *etc.* openly)

açıq-aydın – it's as clear as daylight / it's as clear as day / it's as clear as noonday / terse and clear / perfectly / quite (plainly)

açıq çay – a weak tea

açıq danışmaq (heç bir şey gizlətmədən) **– to have a heart-to-heart talk with someone / to speak one's heart to someone / to unbutton one's soul / to talk without reserve / to talk turkey**

açıq demək (hər şeyi söyləmək) **– to say one's piece / to come clean / to make a clean breast of / to talk turkey** (to talk openly)

açıq dəniz – blue water

Açıq düşmən qeyri-səmimi dostdan yaxşıdır. – Better an open enemy than a false friend. / False friends are worse open (/bitter) enemies.

açıq eynlə – with a clear head / with a clear (fresh) mind / with fresh eyes

açıq gözlə – to think smth. over / to turn smth. over in one's mind

açıqhavada – intheopen / intheopenair

açıq iclasda – in public session

Açıq qaba it dəyər. – A communicating yard.

açıq qapı siyasəti – open-door policy

açıq qapını döymək (hamıyaaydınolanhəqiqəti isbatetməyə çalışmaq)**– to force an open door / to knock at an open door** (try to prove the obvious)

Açıq qapını döyməzlər. – Nobodyknocksatanopendoor.

açıq qapını itələmək – to force an open door / to knock at an open door (try to prove the obvious)

açıq qapını sındırmaq –to force an open door

açıq qəlblə – with all one's heart and soul / body and soul / with all one's being / with feeling / from the heart / with all one's heart

açıq qəlbli adam – with open heart / open-heartedly / wholeheartedly / open as the day (quite frank and open with someone)

açıq qıfıla açar salmaq – *bax* **açıq qapını itələmək**

açıq olmaq – 1. *bax***açıq demək; 2. to be open with someone; 3.** (aşkar olmaq, açıq hərəkət etmək) **– to come into the open**

açıq oyun oynamaq (heç nəyi gizlətməmək, hər şeyi açıb demək) **– to make a clean breast of smth.**

açıq-saçıq danışmaq – to speak openly

açıq-saçıq həyat sürmək – to lead a free-and-easy life

açıq-saçıq səhnələr ilə dolu film (pornoqrafiya filmi) **– blue movies** (an obscene or pornographic film)

açıq-saçıq yaşayış – a licentious living

açıq səma – a serene sky (clear sky)

bir işdə əli olmaq (bir işdə iştirak etmək) **– to have a finger in smth. / to have a say in the matter**

bir işdə əli olmayan adam (kənar şəxs) **– an outsider / a stranger**

bir işdə əsas rol oynayan adam – the first fiddle

bir işdə iki şərikin eyni iştirakı - * it takes two to tango! (about the cooperation of two men in a business)

bir işdə saç ağartmaq (bir işdə təcrübəli olmaq)**– to know a thing or two**

bir işə əl atmaq – *bax* **bir işə girişmək**

bir işə girişmək – 1. * to take up the ball; 2. to get things put to rights / to take a matter up

Bir işi başlayanda, onun axırını fikirləş. = In every beginning think of the end.

bir işi görməyə meylli olmaq – to have a good mind to do smth. (intend to do withahighdegreeofprobability)

bir işi gözü yumulu edə bilmək – someone can do smth. standing on his / her head

bir işi özünü sıxaraq (maddi cəhətdən) **görmək** (çox az pul istifadə edərək) **– to be on a shoestring**

bir işi yarımçıq qoymaq (axırına çatdırmamaq) **– to do smth. by halves / not to do anything** (things by halves)

bir işi yarı-yarıya görmək (şərikinə etmək) **– to go halves** (to share half or equally become partners)

bir işin əsasını qoymaq (bünövrəsini qoymaq)**– to lay foundation for smth.**

bir işin qulpundan möhkəm yapışmaq (işə ciddi girişmək) **– to get teeth into something** (to work on seriously)

bir işinuğurunu təmin etmək – * to get smth. across the footlights

bir işin yolunda canını qoymaq – to put one's back into

bir it də (heç kəs) **– no one at all / not a living soul / not a mortal man** (nobody)

bir kəs olmaq – * tobeanybody

Bir kəsin toyuğuna daş atmaz. –*bax* **Bir adamın toyuğuna "kiş" deməz.**

bir kilometr uzaqdan keçmək – to steer a mile clear of someone or smth. / to keep well out of someone's way / *Cf.* **to give someone a wide berth**

bir kilometrdən görünür (çox uzaqdan görünür) **– one can see someone or smth. a mile (miles) off (away) / you can't miss him (her, it, them)**

bir kitab söz danışmaq – *bax* **bir quran söz demək**

bir könüldən min könülə – *bax* **bir ürəkdən min ürəyə**

bir köynək əti var (dolğun insan haqqında) **– a well-nourished man**

bir köynək ət tökmək – to burn with shame / to die of shame / to be consumed with shame

bir köynək tər təkmək – to work until exhaustion / to work one's fingers to the bone / to sweat blood / to sweat one's guts out

bir köynəkdə qalmaq – to be left without a shirt to one's back / to be left high and dry / to be left stranded

bir köynəkdə qoymaq – to leave someone without a shirt to his back / to leave someone high and dry / to leave someone stranded

Bir qapıdan iki dəfə keçmək olmaz. – You cannot eat your cake and have it too. / If you run after two hares, you will catch neither. / Dogs that put up many hares kill none. / Grasp all, lose all. / All covet, all lose. (One can't do two things at the same time.)

birqaraqəpiyə dəyməyən (dəyərsiz, heç nəyə layiq olmayan) – **notworthabean / notworthadamn / notwortharap / notworthastraw /** *Amer.***notworthadime / notwortharedcent**

bir qarın ac, bir qarın tox yaşamaq – to be fed by manna from heaven / to live on air / to live frugally / to be half-starving

bir qarın çörəyə möhtac olmaq (böyük ehtiyac içində olmaq**) – hardly make ends meet** (to be extremely poor)

bir qarın söz (bir yığın məlumat) **– a budget of news**

bir qarış (çox xırda, çox kiçik)**–** *Lit.* **as big as a thimble**

bir qarış da olsa geri çəkilməmək (bir kəssiz və ya bir şeysiz keçinməmək) – **one cannot move (stir, take) a step without someone or smth.**

bir qarnı ac, bir qarnı tox dolanmaq – *bax* **yarıac-yarıtox yaşamaq**

bir qayda olmayaraq (həmişəkindən deyil)**– unusually / contrary to custom / contrary to one's habit** (one's usual way)

bir qədəh içki –a short one / drinking-bout (a drink of alcohol)

bir qədər (bir az, bir necə) **– a little / a few / little measure of smth.**

bir qədər artıq – a little over / a little more than / odd / just over

bir qədər uzaqda – a little way from ... / a little off from ...

bir qəlibdən çıxıb – all made to a pattern / all tarred with the same brush

bir qəlibə tökmək – to reduce someone or smth. to a common (to the same) denominator

bir qənaətə gəlmək (bir fikrə gəlmək) **– let an idea ripen in one's mind**

bir qəpiyə dəyməz – someone or smth. is not worth a brass farthing / smth. is not worth a brass button / smth. is not worth a damn / smth. is not worth a pin / so much for something

bir qəpiyə satmaq (otuz gümüş - satqınlığın qiyməti) **– to betray someone for thirty pieces of silver**

bir qəpiyi yoxdur (lütün biri) **– to pull the devil by the tail / to be without a penny / to be without a brass farthing / to be out of pocket / to be stony-broke / not to have a penny to one's name / not to have a farthing to bless oneself with / not to have a silver (shilling, shot) in the locker / not to have a bean** (to be in a trouble)

bir qruşa dəyməz – *bax* **bir qəpiyə dəyməz**

Bir qorxaq bir ordunu xarablar. – *bax***Bir çürük alma bütün səbəti korlar.**

Bir qotur dana bir naxırın adını batırar. – *Lit.* **One scabby (scabbed) sheep will mar a whole flock. / One scabbed infects the whole flock. /** *Cf.* **The rotten apple injures its neighbours. / One drop of poison infects the whole tun of wine.**

Bir qoyundan sürü olmaz. = *Lit.* **A sheep isn't a flock. / A tree isn't a garden.**

bir qucaq sür-sümük – *bax* **bir dəri, bir sümük**

Bir qulağından alıb, o biri qulağından vermək. (əhəmiyyət verməmək) **= In at one ear and out at the other. / One gives no ear to smth.** (to take no heed of, what has been said is forgotten immediately)

bir Quran söz demək (çox danışmaq) **– 1. to lecture someone; 2. to tell a story**

bir qurtum – a little something

bir qurtum su içməkdən də asan (çox asan) **– easier and simplier than one can imagine / as a piece of cake** (very easy)

bir ləhzədə (bir anda) **– att one go / in a flash / in a trice** (quickly)

bir məktəbdə ya da universitetdə oxuyan dost (köhnə yoldaş) – **the old boy / the old school tie**

bir mələkdir – *Amer.* **a plaster saint**

bir neçə dəfə nəşr olunmaq – to go through several editions

bir neçə sətir cızmaq – to drop a line

bir nəfər kimi (hamıya aiddir) – **all and Sundry**

bir nəfərdən başı uca olmaq (birkəsdən daha yaxşı olmaq)**– to be a cut above someone**

bir nəfəsə – 1.(tez) **– to hold one's breath; 2.** (bir dəfəyə)**–at a (one, single) blow / at a (one) sweep (swoop) / at one stroke / at a stretch / at a single bound / at one go / with one leap;3.** (ardıcıl, fasiləsiz) – **at a stretch**

bir nəfəsə danışmaq – to talk nineteen to the dozen / to clack (to click, to go, to run) sixteen to the dozen / to spout words / to be like an overflowing sack

bir nöqtədə (bir yerdə) **– at a standstill**

bir nöqtəyə vurmaq – to hammer it home / to hammer away at smth. / to harp upon one (the same) string (to concentrate on one thing)

birnömrəli – 1. (müəyyən bir işdə öndə olan əsas insan haqqında) **–number one; 2.** (əla bir şey barədə) **– thecat's meow / the cat's pajamas / the cat's pyjamas / the cat's whiskers** (of something good)

bir növ (müəyyən dərəcədə) **– in one's own way / a kind of / a sort of / of its sort / in some sort**

bir oğlandır, çayda balıq yan gedər – *bax***canlara dəyən adamdır**

biroxlaikidovşanvurmaq – tokilltwobirdswithonestone

bir olmaq – to be at one

bir oturum(d)a (bir dəfəyə) **– at a (one) sitting / at (in) one go / at a stretch / at a blow / at a stroke / at a sweep / at a swoop / at a scoop**

bir oturumabir qoyun yemək (çox yemək)**– to eat a horse** (to eat a lot and hungrily)

bir parça çörək – a slice of bread (vital needs)

bir parça çörək qazanmaq – to earn one's crust (daily bread)**/ to earn (make) one's living**

bir parça çörəkdən məhrum etmək – *bax***başqasının çörəyinə bais olmaq**

bir parça əppək – *bax***bir parça çörək**

bir partiyadan o biri partiyaya keçmək – * to cross the floor of the house

bir peşədə baş ağartmaq (vərdişə yiyələnmək) **– to have got the hang of smth.**

bir pud duz-çörək yemək (uzun müddət bir yerdə yaşamaq, dostluq etmək) **– to eat a bushel (a sack, a peck) of salt with someone** (to live a long life with someone, to keep up a friendship with somebody, to be friends with someone)

bir saatlıq xəlifə – king for a day

bir sağola (havayı, müftə) **–** *Lit.* **to work for "thank you" / to do smth. for nothing**

bir sandıq (çoxlu) **– to talk nineteen to the dozen / to spin a long yarn / to talk a dog's hind leg off / to talk a donkey's hind leg off / to talk a horse's hind leg off / to talk someone's head off / to talk the bark off a tree / there is much to tell you about**

bir saniyə – just a second! / just a moment! / just a sec!

bir səslə – *bax***yekdilliklə**

bir-sıfır sənin xeyrinə – right you are! / bull's eye! / you've got it! / that's the ticket!

birsıraməsələlərə toxunmaq, müzakirə etmək –*to cover the ground

bir simada (bir adamda**) – combining different functions /** *Cf.* **omnium gatherum**

Bir sinifdə oxumamışıq ki?!– *bax***Yerdən göbələk çıxmayıb ki?!**

birsirdir! – mum'stheword!

bir sözlə (qısası) **– in a word / in one word / in short / the long and the short of it / in a nutshell** (briefly speaking)

* **bir sözünü iki eləməmək – to submit to someone implicitly**

bir suyu çəkmək – to look (be) rather like someone

bir şey əldə etmək olmayacaqdır – you won't go very far without (or with) someone or smth. / that won't (will never) get you far / that will not avail you much

bir şeyə nail olmaq üçün qarşısına məqsəd qoymaq – * to have an eye to doing smth.

bir şeyin mənasını müstəqil surətdə anlamaq, dərk etmək – to reach some conclusion unaided / to think (to reason) smth. out for oneself

bir şeyin yaxşı tərəfini göstərmək – to show things in the best light / to show things off to the best advantage / to show smth. to good effect

bir tərəfə atmaq (kənara qoymaq, bir yana yığmaq) **– to put smth. aside / to put smth. off** (to postpone smth.)

bir tərəfə çəkilmək – to wander from the point (subject) / to stray off the subject / to evade (to parry) a question

bir tərəfdən pisdir, o biri tərəfdən yaxşı – there is a little of everything in someone / this and that / the good with the bad

bir tutmaq (bərabər tutmaq) **– to set (put) someone on a level with someone** (to assosiate smth. with smth.)

bir tükünü də yerindən tərpətməmək – not to pay attention to someone or smth.

bir tükcə saymamaq – not to care a brass farthing for someone or smth. / not to care a button for someone / not to care a pin for someone / not to care a fig for smth. / not to care a straw for smth. / not to give a damn for someone or smth. / not to give a curse for someone or smth. / not to give a darn for someone or smth. / not to give a hoot for someone or smth. / to think that

someone or smth. is not worth a groat / to make no account of someone or smth.

bir ucunu boş burax – don't worry your head with it! / don't lose any sleep over it! / take it easy!

bir udum su içmək kimi asan – it's mere child's play for one / one can do it with a snap of his (her) fingers / it's easy as falling off a log / one can dash it off in no time / it's no great shakes for him (her) to do it

bir ülgüdə – all of a kind / all of the same pattern / all of the same stamp / all in the same style

bir ürəkdən min ürəyə – from heart to heart / with all one's heart and soul / body and soul / with all one's being

bir vur-çatlasın var – hell broke loose / *Cf.* **you have to carry out the saints** (*i.e.* icons) **to avoid shocking them / you have to call the fire department** (of a loud noise)

bir yastığa baş qoymaq – to be wife and husband (to sleep in the same bed, to live together, to have sex with one)

bir yerdə yaşamaq (bir evdə yaşamaq)**– to live under the same roof**

bir yerdə qərar tutmamaq (daima hərəkətdə olmaq) – **to have the nails in one's ass** (to be always in action)

bir yerimə ki – one couldn't care less about it / one doesn't give a hoot (a fig, a damn, a shit) about it / one does not care a damn (a darn, a fart)

* **bir yeyib, beş vermək –** *bax***əliaçıq olmaq**

* **bir yeyib, min şükür etmək – to be satisfied with one's own fate**

bir yuvanın quşu – *bax***bir bezin qırağı**

bir yüzünə dəyər – a host in himself

bir zamanlar (keçmişdə, vaxtilə, bir vaxt) **– at one time**

bir zərrə – next to naught / less than nothing / nothing to speak of smth. / a little to swear by / hardly anything / pint-sized / pocket-sized / a drop in the ocean / next to nothing / precious little (very small, tiny, wee, few)

bir zibildir (fərqi yoxdur) **– it's all the same to someone / what the devil's the difference!**

birdir – 1. (tam eyni) **– all first-rate (select, choice, picked) / each better than the other /** *Cf.* **a hand-picked bunch; 2.** (bir kəs üçün) **birdir** (fərqi yoxdur) **– someone or smth. is the same to one as … / it's all the same to someone / it's a matter of indifference to someone**

birəlli tutmaq – not to know someone's worth (price) / not to know the value of smth.

Biri ov quşlarını qaldırır, digəri isə onu ovlayır. (Biri işləyir, digəri isə onun zəhmətinin bəhrəsindən faydalanır.) **– One beats the bush and another cathches the bird.**

biri o biridən kiçik – one is smaller than the other / each in turn younger than the other (of children in a large family)

biri o biridən zəhləsi gedir – there's no love lost between them

biri o birinə can deyib, can eşidirlər – there's no love lost between them

birivardı, biri yox idi – once upon a time / one day / onefineday

birinin Leyli-Məcnundan, birinin Əsli-Kərəmdən danışması (bir-birini başa düşməmək) **– talk at cross purposes** (when two people are at cross purposes and they don't understand each other because they are talking about or aiming at different things, without realizing it)

BİRBAŞ

birbaş – straight / directly

birbaşa – 1. *bax***birbaş; 2.** (açıq, təmiz) **– straight from the shoulder; 3.** (düzünə,qısa yolla getmək) – **as the crow flies in a crow line**

birbaşa danışmaq (heç nədən çəkinmədən açığına demək) **– to lay it on the line / not to put too fine a point on it**

BİR-BİR

bir-bir – one by one

bir-bir yolub buraxmaq – to strip someone bare / to strip someone to the skin / to pare someone to the bone / to fleece someone / to flay someone alive

bir-biri ilə üz-göz olmaq – 1. to fall out (to quarrel)**; 2. to be at daggers drawn** (to have a feud with someone)**; 3. to find someone** (to be unable to bear someone or smth.)

bir-birindən ayırmaq – to drive a wedge into smth.

bir-birindən geri qalmamaq – *bax***bir bezin qırağı**

bir-birinə dəymək – to throw into a panic / to take alarm / to be startled

bir-birinə qarışmaq – *bax***bir-birinə dəymək**

bir-birinə vurdurmaq – *bax* **aranı qatmaq**

bir-birini başa düşməmək – *bax***bir-birinin dilini başa düşməmək**

bir-birinin ağzına baxmaq – 1. to be an open-mouthed listener / to hang on someone's every word / to nod agreement with someone / to hang upon someone's lips; 2. to watch someone eating / to look greedily into someone 's mouth (wanting that food for oneself)

(elə bil) bir-birinin ağzına tüpürüblər – to repeat in one voice (unanimously)

bir-birinin ardınca – turn and turn about

bir-birinin ardınca sıradan çıxmaq – tobowl over like ninepins

bir-birinin boğazını gəmirmək (dalaşmaq, pis yola getmək) **– to be at each other's throats** (two or more men fight a lot)

bir-birinin dilini başa düşməmək – to talk in different languages / to speak different languages

bir-birinin dilini sözsüz başa düşmək – to find common language with someone / to reach an understanding / to understand one another / to see eye-to-eye

bir-birinin əlindən qapmaq – to snatch smth. out of someone's hands

bir-birinin əlinisıxmaq – toshakehandswithsomeone

bir-birinin ətini yemək – *bax***bir-birinin tükünü didmək**

bir-birinin kölgəsinə güllə atmaq – to menace someone in his (her) absence (to threaten someone with smth.)

bir-birinin kölgəsini qılınclamaq – *bax***bir-birinin kölgəsinə güllə atmaq**

bir-birinin tükünü didmək – to bicker / to squabble / to wrangle

biri birindən yaxşı (seçmə) **– every one of them a stalwart** (fine fellows to a man)

biri birinə dəyməz, ikisi də heçə – *bax* **bir-birindən geri qalmamaq**

BİRCƏ

bircə qarış boyu var – 1. very small and young / half-pint / half-portion / knee-high to a grasshopper; 2. hardly out of pinafores / wet behind the ears / scarcely out of the shell yet / a stripling

BİRÇƏK

birçəyi(n) ağar(t)maq – to turn grey (to get old)

* **birçəyin ağarsın! – to speak reproachfully**

birçəyinin ağ vaxtında – in one's old age / in the afternoon of life

BİRDƏ

birdə burda iyin-tozun olmasın! – Don't let me see a trace of you! / get lost!

birdə gördün ki – before you know where you are / any minute (day, *etc.*) **now / at any moment /** *iron.* **all we need now is …**

BİRDƏFƏLİK

birdəfəlik (həmişəlik) **– once and for all / once and away / once and forever / once and no more / for good and all**

birdəfəlikqurtulma(həmişəlikxilasolma) – * **a clean sweep**

BİRDƏQİQƏLİK

birdəqiqəlik işdir – the work of a minute / it won't take a minute

BİRDƏN

birdən – 1. (qəfildən, hazırlıqsız) **– in a flash; 2.** (ehtiyatsız) **– with all one's might (power, force); 3.** (gözlənilmədən, qəfildən) **– against all expectations** (unexpectedly)

birdən ağlıma gəldi – to come into someone's head / to come into someone's pate / the whim seized someone / someone has a fancy for smth. / to wonder into one's brain / to pop into one's head (of funny or absurd ideas)

birdən beynimə düşdü – *bax* **birdən ağlıma gəldi**

birdən birə – right away / straight away / without delay / right from the start / *Amer.* **right off the bat**

birdən qıpqırmızı oldu – to turn red in the face / to flush / to blush / to colour

birdən pula döndü – *bax* **birdən qıpqırmızı oldu**

birdən üz vermək – *bax***gözlənilmədən baş vermək**

birdən-birə (qəfildən, düşünmədən, fikirləşmədən, hazırlaşmadan) **– quite suddenly / rushly / off-hand / off the cuff / without rhyme or reason / off the top of one's head / on the spur of the moment / through slap-dash / foolhardily / off-hand / without a moment's hesitation / without thinking twice**

birdən-birə özünü dərk etmək (bir şey özündə hiss etmək, hansısa bir fikri tutmaq) **– to catch oneself at smth.** (doingsmth.) **/ tocatchoneselfoutdoingsmth.**

* **birdən-ikidən – ever**

* **birdən-ikiyə – 1.** *bax* **birdən-ikidən; 2. whenever; 3.** (heç vaxt) **– never**

BİRƏ

Birənin qanın aldın, canın aldın. – One link broken, the whole chain is broken.

BİRİNCİ

birinci addımı etmək (söhbəti başlamaq, sözü açmaq, müzakirə açmaq, hərəkətə başlamaq)–*Amer.* **to set the ball rolling / to start the ball rolling**

birinci il ərdə deyil – not born yesterday / person who has seen a thing or two in his (her) life

birinci qan almaq (birinci zərbəni vurmaq) **–to draw the first blood**

birinci növbədə (başdan, əvvəl) **– in the first instance / first of all / the first thing / right way**

birinci olmaq – 1. (qələbə qazanmaq) **– to bear (to carry) away the bell; 2.** (yeqanə diqqətobyektiolmaq) **– tofillthebill; 3.** (rəhbər yerini tutmaq, səviyyəli olmaq) **– to play first fiddle**

birinci şəxs (ən vacib şəxs) – the king of the castle

birinci şəxsin ətrafına yaxın əlaqə – belonging to President's, Prime-minister's, VIP's advisers, their retinue

Birinci təəssürat aldadıcı olur. – First impressions are most lasting though they may be wrong. / Conversation makes one what he is.

birinci yer tutmaq – *bax* **ötüb keçmək**

birinci yerdə (bir kəsin diqqət mərkəzində) **– uppermost in one's mind**

birinci yerə çıxmaq – *bax***birinci yer tutmaq**

birinci yüksək təltif – * a blue ribbon (a high rewarding)

Birinci zərbə döyüşün yarısıdır. = The first blow is half the battle.

birinciliyiniqorumaq – tolooktoone'slaurels

BİRLİKDƏ

birlikdə – 1. to work together (as a pair) / to do smth. in pairs; 2. while one is about it

BİRNƏFƏSƏ

birnəfəsə (dərhal, o saat) **– without thinking twice / without giving it a second thought / without a moment's hesitation / without stopping to think –**

at one go / at a stretch / at the first go-off (onset) / at (in) a single bound (blow, breath, etc.) / at a (one) sitting / in one gulp

birnəfəsə demək – to blurt out everything

BİRSƏSLƏ

birsəslə (yekdilliklə) **– with one mind / in unison / with one voice** (unanimously)

BİRTƏHƏR

birtəhər (pis deyil) **– I should say / just anyhow / in a careless way / in a slipshod (slapdash) manner**

birtəhər adam (qəribəlikləri var) **– someone is a bit screwy / someone is a real lamebrain / someone wants his (her) brains testing / an odd person who has his quirks / crazy / batty / bonkers / nuts**

birtəhər dolanmaq (çətinliklə) **– hardly make ends meet / to make both ends meet / to make buckle and tongue meet**

birtəhər dözərik! – *Lit.* **we'll break through! / everything will be O.K.!**

birtəhər olmaq (özünü pis hiss etmək) **– someone does not feel well / someone feels out of sorts / someone feels out of colour / someone is not himself (herself)**

birtəhər özünü saxlamaq – to clench one's teeth / to grit one's teeth

birtəhər təbəssüm (qeyri-səmimi təbəssüm) **– a wry smile** (ironic smile)

birtəhərdi – someone is anything but … /God ill-treated him as far as his…

BİRTƏRƏFLİ

birtərəfli mühakimə yeritmək – to look at someone or smth. from one's own angle / to see only one's own point of view / to judge someone or smth. very parochially / to take a one-sided (personal, parochial) **view of smth.**

birtərəfli oyun oynamaq – game with one goal-mouth / one-sided game

BİRYOLLUQ

biryolluqeləmək – to put an end to smth.

BİSMİLLAH

* **bismillah edin! – start! / begin!** (exclamation which means the beginning of the action)

BİŞİM

bişim-bişimlə dolanmaq (bir kəslə çox ehtiyyatla davranmaq) **– someone needs careful handling / to handle someone with kid gloves** (to deal with someone in a very careful way so that not offend or upset him/her)

bişim-bişimlə öz istədiyinə nail olma – a carrot and stick policy (the promise of reward and threat of punishment both at the same time)

BİŞİRMƏK

bişirmək (yola gətirmək) – **to twist someone's arm**

BİŞMƏK

bişən aşa su qatmaq (bir kəsə bilərəkdən pislik etmək**) – to put a spoke in someone's wheel / to upset one's plans / to throw a spanner in the works / to put grit in the machine / to throw sand in the wheels** (to break up smth.)

bişmək (təcrübə yığmaq)**– to acquire an experience / to make oneself fit**

bişməmiş(təcrübəsiz**) – green** (inexperienced)

bişməmiş adam – *bax* **təzə cücə**

bişməmiş fikir (tam hazır olmayan) **– an immature idea**

bişmiş – worldly wise (experienced)

bişmiş aşa soyuq su qatmaq – *bax***bişən aşa su qatmaq**

Bişmiş toyuğun da gülməyi gəlir. – Enough to make a cat laugh. / It would make even a cow laugh. / It would make even a fly laugh.

bişmiş toyuğun gülməyi gəlir (güldürmə məni!) **– don't make me laugh!** / *Cf.* **it's enough to make a cat (a cow) laugh!**

BİTDƏ-BİTDƏ

(bir kəsi və ya bir şeyi) **bitdə-bitdə təhlil etmək** (bütün xırdalıqlarını)**– to pick someone or smth. to pieces / to go over someone or smth. point by point** (to dissect someone or smth.)

BİTMƏK

bitdi! – and that's all! / and that's that! / and that's all there's to it! / you can take it or leave it! / do or die! / and there you are!

bitmiş adam (iflasa uğramış, yoxsullaşmış) **– down and out / down at the hells**

BİZ

Biz də göbələk deyilik. (Bizim də arxamız var.) **– A cat may look at a king.**

biz qalib gəldik (bizim tərəf üstün oldu) **– the victory is ours (yours,** *etc.*)**! / we (you,** *etc.*) **win! / we've (you've,** *etc.*)**come out on top! / our side won!**

Biz olmayan məsciddə gündə iki ehsan verirlər. – It's fine everywhere except where we happen to be. / *Cf.* **The grass is always greener on the other side of the fence (of the hill). / Blue are the hills that are far from us.**

biz sizi yaxşı tanıyırıq – we know your sort! / we know all about you! / you can't fool us!

biz və bizim taylarımız – we / our kind (sort) / the likes of us

bizdən arxayın ol – there will be no difficulty in smth. / there'll be no hindrance from someone's side

Bizi də ağac oyuğunda tapmayıblar.– *bax***Yerdən göbələk çıxmayıb ki?!**

bizim adamdır – my good fellow / my man / one of us / our kind (sort)

bizim çörəyimiz deyil (bizim işimiz deyil) **– that's none of our business / that's nothing to do with us**

Bizim də küçədə toy-bayram olar. – Our day will come. / We'll have our day, too. / Our day is at hand. / There will be bright days yet. / *Cf.* **There's another day (a good time) coming. / The sun will shine on our street, too. / The sun will shine on our side of the fence. / After rain comes fair weather (sunshine). / It's a long lane (run) that has no turning. / The weariest day draws to an end (to a close). / Every dog has his day.**

bizim dövrdə –in the day and age

bizim tayımız deyil – not our kind / not the likes of us / a horse of quite another colour

bizimki bizə dəydi – we have come through fire, water, and copper pipes /we have gone through fire and flood and hell upon earth / we have been through the mill / we have been through very hell

bizimki tutmur – we are unsuited to each other / we don't get on (along)

bizlər (biz və bizim kimilər, biz qadın-qızlar) **– we (us) women (girls) / our kind (lot, sort)**

BİZLƏMƏK

bizləmək – to drive on / to speed on (to urge on)

BOĞAZ

* **boğaz açmaq – 1. to eat greedily; 2. someone has not one's fill**

boğaz-boğaza gəlmək – *bax* **bıçaq-bıçağa** (olmaq)

boğaz dolusu – atthetopofone'slungs (veryloudly)

boğaz döymək – 1. to argue with someone in vain / to argue with someone for nothing; 2. to prate / to talk idly / to wag one's tongue / to talk hot air / to shoot the breeze / to mill the wind / to tell fibs / to tell cock-and-bull stories / to bullshit

boğaz olmaq – 1. (kasıb olmaq) **– to be a poor man; 2.** (asılı olmaq, bağlı olmaq) **– to make fine weather and foul**

boğaz ortağı olmaq – an extra (another) **mouth to feed / to hang on to someone's meal**

boğaz otarmaq – to eat at someone's expense / to sponge on someone/ to be a sponger / to be a parasite (to lead the life of a drone)

boğaz yırtmaq – to bawl (to yell, to shout) **at the top of one's voice**

boğaza çıxmaq –*bax* **boğaza qədər 2-ci mənada**

boğaza dürtmək – *bax***boğaz döymək**

boğaza gətirmək – *bax***boğaza yığmaq**

boğaza keçmək – to throw oneself at someone / to run after someone / to chase someone / to stick in someone's throat

boğaza qədər – 1. up to the neck in work / up to the ears in work / up to the chin in work / up to the elbow in work; 2. up to the neck / more than enough / enough (work) and to spare / up to the hilt

boğaza qədər doymaq – 1. to be full up / to be full up to here (to bursting) **/ to be quite satisfied; 2. to fed up with someone or smth. / to fed up to the back teeth with someone or smth. / having had more than one's share of smth.**

boğaza yığılmaq – *bax***cana doymaq**

boğaza yığmaq – 1. to be a stick in someone's throat / to be a thorn in someone's flesh / to touch someone to the quick / to get up someone's nose / to turn someone's stomach / to make someone sick; 2. to rouse someone to a fury / to make someone furious / to drive someone into a frenzy / to drive someone batty / to drive someone crazy; 3. to harass the life out of someone / to worry someone to death / to rack someone's soul

boğazacan (çox) **– 1. up to the neck / more than enough / enough (work) and to spare; 2. up to the neck (ears, chin, elbow) in work**

Boğazacan borc içindədir. – Be deeply in debt. / *Cf.* **Be up to the armpits on debt. / Be up to one's ears in debt. / Be up to the neck in debt.**

boğazacan doymaq – 1. (yeyib doymaq) **– full up / full up to here / full up to bursting / quite satisfied; 2.** (bezmək) **– to fed up with someone or smth. / to**

fed up to the back teeth with someone or smth. / having had more than one's share of smth. / to be browned off

boğazdan yuxarı danışmaq – in word only / to speak insincerely (hypocritically, pretendedly, reluctantly, unthoroughly)

boğazı biçilmək – to lose the power of speech / to lose one's tongue / one's tongue failed one / one has seen a wolf

boğazıəlində olmaq – to fall into someone's clutches / to get into someone's talons

boğazı gəlmək (boğazına soyuq olmaq)**– to have pharingitis** (to have a sore throat)

boğazı islatmaq (azacıq içmək)**–** *Lit.* **to rinse one's bowels / to have a drink of alcohol /** *Cf.* **to wet one a throat (clay, whistle) / to have a drop / to lay the dust**

boğazı kəndirdə olmaq – to be in one's clutches

boğazı kilidlənmək – *bax***boğazı biçilmək**

boğazı qəhərlənib – a lump in one's throat

boğazı qurumaq – to swallow one's tongue / to lose one's tongue

boğazı tikilmək – *bax* **boğazı kilidlənmək**

boğazı tutulmaq (qısa müddətə danışa bilməmək) **– frog in one's throat** (to lose one's voice for a short time)

boğazım quruyub – one's throat is dry (parched) in the morning-after / one will kick off if he does not have a hair of the dog

boğazımda qaldı – one swallowed the wrong way

boğazımdan keçmir – it sticks in one's throat

boğazına bağlamaq – to become a burden on someone / to sponge on someone (to overburden someone)

boğazına çökmək – to catch someone by the throat / to take someone by the throat

boğazına diri ilan dolasalar da ... (möhkəm insan haqqında)**– a hard nut to crack / a tough nut to crack**

boğazına keçmək – to stick in someone's throat / to be a thorn in someone's flesh / *Cf.* **to touch someone to the quick / to get up someone's nose / to turn someone's stomach / to make someone sick**

boğazına kəndir salsalar da – *bax***boynundan assalar da ...**

boğazına qurğuşun töksələr də ... – *bax* **boğazına diri ilan dolasalar da ...**

boğazına sarılmaq – to throw oneself on someone's neck / to cling to someone

boğazına şərik çıxmaq – *bax* **boğazına şərik olmaq**

boğazına şərik olmaq – *bax* **boğaz ortağı olmaq**

boğazında qalmaq – 1.(arzusuna çatmamaq) **– to stick in one's throat / to stick in one's gizzard; 2.** (dözülməz bir şey haqqında) **– to stick in someone's throat / to be a thorn in someone's flesh / to touch someone to the quick / to get up someone's nose / to turn someone's stomach** (to make someone sick)

boğazında qalsın! – may get a bone in one's throat

boğazından assalar da ... –*bax***boğazına kəndir salsalar da**

boğazından aşırmaq – to drink straight from the bottle

boğazından çıxarıb vermək – to share a crust with someone

boğazından çıxmaq – 1. to slip smth. out of one's hands; 2. not to fall to someone's lot (share) **/ not to come one's way** (of misfortunes, *etc.*)

boğazından çörək getməmək – *bax* **boğazından keçməmək**

boğazından keçməmək – the food sticks in one's throat / one cannot eat a morsel / the very thought of food sickens him (her)

boğazından kəsmək – 1. (özünə ziyan edərək başqasına xeyir vermək) **– to deprive oneself of smth. / to cough something up** (to cut down one's expenses)**;2.***bax***it aparan olsun 1-ci mənada**

boğazından ötürmək (tez bir şeyi udmaq, yemək, içmək**) – to swallow smth.** (toappropriatesmth.)

boğazından tutmaq (bir kəsi bir şeyı eləməyə məcbur etmək, bir kəsə təzyiq göstərmək) **– to have (to get, to take) someone by the small (short) hairs / to**

put screws to someone / to bring someone to book / to clamp down on someone / to put the heat on someone

boğazından tutsan canı çıxar(çox arıq insan haqqında)**– one is half dead / one hardly keeps soul and body together / one is weak as water / one is weak as a cat / one is weak as a straw**

boğazından üzüaşağı ötürmək – *bax* **boğazından ötürmək**

boğazından yapışmaq – 1. *bax***boğazına çökmək; 2. to tread on someone's neck / to take someone by the throat / to rush someone; 3. to grab someone by his lapels or shirt-front** (in fighting) **/ to take someone by the scruff of his neck**

boğazını cırmaq – *bax* **boğazını yırtmaq**

boğazını islatmaq (azca içki içmək) **– to moisten one's clay / to have a drink of alcohol / to wet one's throat / to wet one's clay / to wet one's whistle / to have a drop / to lay the dust**

boğazını qəhər tutmaq (bərk hirslənmək)**– one's blood rose in a jet / to choke with anger** (to become furious)

boğazını qəhər tutdu – to choke with sorrow

boğazını qurutmaq – 1. (təəccübləndirmək) **– to strike someone** (to surprise someone)**; 2.** (bir kəsi pis vəziyyətə qoymaq) **– to put someone into a difficult position; 3.**(bir kəsi bərk qorxutmaq) **– to terrify someone awfully**

boğazını üzmək – 1. (bir kəsi məhv etmək) **– to take someone by the throat / to be on someone's neck about smth. / to tread on someone's neck / to rush someone / to go for someone / to pester someone; 2.** (müflis etmək) **– to cut someone's throat**

boğazını yaş eləmək – *bax***boğazını islatmaq**

boğazını yaşlamaq – *bax* **boğazını yaş eləmək**

boğazını yırtmaq (bərk qışqırmaq) **– to yell at the top of one's voice / to bawl one's throat raw / to sing at the top of one's voice**

boğazının qalın yerinə salmaq – *bax* **boğazını yırtmaq**

boğazının yoğun yerinə salmaq – *bax* **boğazının qalın yerinə salmaq**

boğazının yolu qurumaq – *bax***boğazı qurumaq**

BOĞÇA

boğçaya qoymaq – to pull the wool over someone's eyes / to draw the wool over someone's eyes / to blunt someone

BOĞLANMAQ

boğlanmaq – *bax***qarnını doldurmaq**

BOĞUQ

boğuq və kədərli səs – a dead voice

BOĞULMAQ

boğulmaq – to lose wind

BOĞULAN

Boğulan adam saman çöpündən yapışar. – A drowning man catches (/clutches) at a straw.

BOĞUŞMAQ

boğuşmaq(dalaşmaq, küsüşmək) **– tosquabble / towrangle**

BOXÇA

boxçada saxlamaq (bir kəsin ehtiyatda gizli bir fikri və yaxud planı olmaq) – **to get / to have / to keep smth. up your sleeve** (to keep a plan or an idea secret)

boxçanı yığmaq (yola hazırlaşmaq) – **to pack one's bags**

BOL

boldur (həmişə var) **– there is no end to smth. / lots and lots of them**

BOLLUCA

bolluca (artıqlaması ilə) **– he (she) has smth. enough and to spare / he (she) has no shortage of smth.**

bolluca toz udmaq – to get a mouthful of dust

BOLLUQ

Bolluğa şıltaq atma. – *bax* **Xımır-xımır - həmişə.**

bolluq deyil – not much / not overmuch / not so many (much) / not much to boast about

bolluqda – in plenty (*usually of drinks*) **/ more than one knows what to do with /** *Cf.* **enough and then some**

BOMBA

bomba kef (əla ləzzət, həzz, zövq) **– an extreme pleasure**

bomba kimi partlamaq – to blow up as a bomb

BOMBOŞ

bom-boşdur (heç nə yoxdur) **– the place is full of sweet nothing / there is not a crumb of anything here / as bare as the palm of one's hand / bare as a bone / as empty as a drum** (perfectly empty)

BORC

borc almaq – to get into debt / to accumulate debts / to run up a score

borc almamaq –to keep afloat / to make both ends meet / hardly make ends meet / make buckle and tongue meet

borc içində üzmək – to be deeply in debt / to be up to the armpits in debt / to be up to the one's ears (chin, armpits, elbows, eyes, eyebrows, neck) in debt / to be up to one's neck in debt

borc içində üzməmək – to hold one's head above water

borciçində yaşamaq – tooutruntheconstable

borc kimi hesab etmək – tomakeitone'sbusiness

borc vermək –* to throw someone a lifeline (to help someone who is in debt)

borca batmaq – *bax***borca girmək**

borca düşməmək – *bax* **borca girməmək**

borca girmək – to get into debt / to accumulate debts

borca girməmək – to keep one'sheadabovewater

borcları ödəmək (göstərilmiş qayğının əvəzini qaytarmaq) **– to sing for one's supper**

borcları yola vermək (borcu üdə mə k) **– to get clear of smth.**

Borclu borclunun sağlığını istər. – One good turn deserves another. / *Cf.* **One hand washes the other. / Roll my log and I will roll yours. / Claw me and I shall claw thee. / Scratch my back and I shall scratch yours.**

borclu qalmamaq – 1. (cavabını qaytarmaq) **– to give as good as one gets / to pay back in kind / not to leave smth. unanswered / to give someone credit for smth. / to be quick to answer back / to give someone tit for tat; 2. to repay someone in kind** (not to forget someone's kindness, service)

borclu olmaq (bir kəs etdiyi yaxşılığını qaytarmaq) **– someone must repay in kind** (not forget someone's kindness)

Borclunun duaçısı borc verəndir. – *bax***Borclu borclunun sağlığını istər.**

* **borcunu qaytaran adam kimi – discontentedly / unwillingly / to be anger with someone about smth.**

(bir kəsə) **borcunu öz bədəni vasitəsi ilə ödəmək** (intim əlaqəyə girərək) **– to give oneself to someone as a payment for protection** (service, *etc.*)

BORU

boru kimi tüstüləyir (siqareti bir-birinin ardınca çəkir) **– to smoke like a chimney**

BOSTAN

bostanına daş atmaq (iş arə vermə k) – **to be pebbling someone's window-pane / to throw stones at someone's window / to drop a hint (at) / to make a dig at someone / to drive at** (to hint at someone or smth.)

BOŞ

boş adam (xaraktersiz adam) – **nonentity / milk and water**

Boş araba çox səs eləyir. – Great cry and little wool.

boş başı olmaq (yadında bir şey qalmayan insan haqqında) – **one has got head like a sieve**

boş buraxmaq (bir şeyə fikir, əhəmiyyət verməmək) – **not to read too much** (to think that smth. means more than it really does)

boş cəhdlər (faydasız, nəticəsi olmayan təşəbbüslər) – **the fruitless attempts**

boş çıxmaq (müvəffəqiyyətsizliyə uğramış bir şey haqqında) – **to go flop / to go fut / to go pfut / to go off like a damp squib / to go to pigs and whistles / to come a cropper**

boş dağarcığı – an idle talker / a windbag / a chatterbox

boş danışıqdan işə keçmək – to mean business

boş danışmaq – to throw out affected words / to talk rubbish / to babble / to have an idle talk / to make up a rigmarole / to wag one's tongue / to beat the air / to shoot the breeze / to talk nonsense / to talk through one's hat / to spin a yarn / to spend one's time in idle chatter / to spend one's wits to no purpose / to waste one's powder (time, energy, *etc.***) and shot / to waste one's fire / to cackle** (talk to no purposes)

boş dayanmada olmaq – to be idle (inactive) / *Cf.* **to sit (stand) around / to hold up a corner / to keep banker's hours**

boş dayanmaq (boş-bekar dolanmaq, işləməmək) – **to lie idle**

boş durmaq – to play the fool / to kid around / to remain idle (to idle away one's time)

boş əllə = 1. withanemptyhands / empty-handed; 2. (silahsız) – **withoutfiringashot**

boş gəzmək – to waste one's life / to idle one's life away

boş xəyal (uydurma) **– the work of someone's imagination**

boş iş (perspektivi olmayan) **– a blind alley employment/ a fools errand/ a forlorn hope / a wild-goose chase**

boş iş deyil (asan iş deyil) **– it's not a trifle / it's not to be sneezed at / that's no laughning matter**

boş iş ilə məşğul olmaq (əhəmiyyətsiz) **– to waste time on trifles / to chronicle small beer**

boş işdir – it is a dead loss / it is lost cause / it is lost hope / it is a bad job / *Cf.* **dead duck**

boş işə baş qoşmaq – to make bricks without straw

Boş qazan bərk danqıldayar. – *bax***Boş araba çox səs eləyir.**

boş nömrə (səmərəsiz iş, ümidsiz iş) **– a poor affair**

boş söhbət – 1. (ağılsız fikir) **– a wild-goose chase / a fool's errand / milk and water; 2.** (gop) **– play of words / a snow job /** *Cf.***thesound waves / an idle talk / an empty bubles / a sheer nonsense** (insincere talk)

boş söhbət aparmaq – to take someone's name in vain / to have an idle talk / to talk rot / to talk nonsense / to talk bullshit / to talk bunkum / to talk through one's hat / to talk stuff / to chatter / to jabber / to twaddle / to be busy chin-wagging with someone / to have (hold) an idle talk / to babble / to wag one's tongue / to mill the wind / *Cf.* **bla-bla in the air /** *Amer.***blah-blah in the air**

boş söhbətdir – 1. idle (mere) talk / verbosity / verbiage / twaddle / rubbish / bullshit; 2. it's no go / it's no dice / no way / fat chance / it's a gone case / it's a dead frost / a fat chance / no way / no go / no hope / nothing doing / you'll get nothing by waiting!;3.a broken reed

boş söz – banana oil / a house of cards / so many words

boş sözdür – *bax* **boş şeydir**

boş şey – 1. (ciddi olmayan bir məsələ) **– nonsense / twaddle / rubbish / balderdash / apple-sauce / poppycock / bullshit / hot air / soft soap /** *Cf.* **a cock-**

and-bull story / a mare's nest; 2. (asandan asan) **– child's play / just toys for babies / simple as pie; 3.**(əhəmiyyətsiz bir şey)**– a mere trifle**

boş şey deyil (zarafat deyil) **– it's not a trifle /** *Cf.* **it's not to be sneezed at / that's not peanuts**

boş şey ilə məşğul olmaq – to play spillikins / to waste one's time on trifles / to trifle (fritter) one's time away / to occupy oneself with trifles

boş şey üstündə mərəkə (qiyamət, həyəcan, mübahisə) **– a storm in a tea-cup**

boş şeydən ötrü hay-küy – *bax* **boş şey üstündə mərəkə**

boş şeydir – an empty phrase / all my eye and Betty Martin! / nothing to / nothing in / *Amer.* **kids' stuff** (smth. meaningless)

boş şeyə əhəmiyyət vermək – to run about like Tom Fool carrying smth. worthless / *Cf.***to be as fussy as a hen with one chick / to fuss over smth. like a child over a new toy**

boş şeyə ümid bəsləmək – to build on sand (to rely on something unsteady)

boş şəhər (sakinləri olmayan şəhər)**–* a ghost town**

boş təsəlli (zəif təskinlik) **– a cold comfort / a Dutch comfort**

Boş torba ilə at tutulmaz. = A horse would not be caught with an empty sack. / You cannot achieve your aim at no cost to yourself.

Boş torbaya at gəlməz. – You cannot achieve your aim at no cost to yourself.

boş tutmaq – to do smth. negligently / in a slipshod manner / to let things slide / to let things go hang

boş vaxtı olmaq – * to have time on one's hands (have time to spare)

boş ver – *bax***ürəyinə yaxın qoyma**

boş vədələr (yalan sözlər) **– leaves without figs / a house of cards /** *Fr.* **a pie in the sky**

boş vədələr vermək – to feed someone with hollow promises (empty hopes) **/ to put someone off from day to day**

boş yer (adam haqqında) **– part of the furniture / a poor stick**

boş yerə (səbəbsiz)**– with no apparent cause / for no reason at all**

boş yerə əlləşmək (heç nə əldə etməmək) **– to have nothing to show for it**

boş yerə getmək – 1. to drag oneself a long way on a wild goose chase; 2. to perish to no purpose / come to grief for nothing

boş yerə danışıb özünü yormaq – to talk to a brick wall (to talk to someone uselessly)

boş yerə özünü yormaq (heç bir şansı olmamaq) **– not to have a cat in hell's chance** (not to succeed at what they are trying to do)

boş yerəvaxtı itirmə –a waste of breath

boşa çıxarmaq – 1. (boş olduğunu sübut etmək) **– to prick the bubble; 2.** *bax***bişən aşa su qatmaq**

boşa çıxdı – *bax* **yoxa çıxdı 1-ci mənada**

boşa çıxmaq – 1. to come to nothing / to come to naught; 2. to crumble into dust / to go to rack and ruin / to go to hell / to go to blazes / to go to pot / to go to the devil / to go to the dogs; 3. to go up in smoke / to fall to the ground / to come unstuck

boşagetmək – to go for nothing

BOŞ-BİKAR

boş-bikar gəzmək (tənbəllik etmək, heç bir iş görməmək) **– to let grass grow under one's feet / to lie softly on one's back / to lie softly on one's side / to lounge about / to sit on one's hands / to play the fool / to kid around / to idle (loiter, trifle) away one's time / to hang (loaf) about / to fool about / to twiddle one's thumbs / to twirl one's fingers / to fold one's arms / to eat lotus / to kick one's heels doing nothing / to bum / lollywag / to hold up a corner / not to do a stitch of work /** *Cf.***to arse (bum, dog, duff, fart, piddle) around (about) / to goldbrick / to goof off)/ to do nothing** (to idle, to loaf, to lounge about)

boş-bikar oturmaq – to fold one's hands (to sit idly)

Boş-bikarlıq beyni kütləşdirir. – Idleness rusts the mind.

BOŞBOĞAZ

boşboğaz (lovğa) **– a bag of wind/a windbag/a shallow person / a liar /** *Amer.* **a hot-air artist / a big mouth / a loud mouth / a big noise**

boşboğazlıq – mere words / empty words / small talk / nonsense / rubbish

boşboğazlıq etmə! – stop your chaterring on! / stop your babbling on!

boşboğazlıq etmək – to hold an idle talk / to talk a lot of nonsense / to drivel nonsense / to rot nonsense / to rubbish nonsense / to have a big mouth / to twaddle / to prate / to talk to no purposes / to babble / to tell a superfluously verbose story / to engage in idle talk / *Cf.* **to mill the wind / to shoot the breeze / to beat around the bush**

BOŞ-BOŞ

boş-boş (mənasızcasına) **– foolishly / stupidly / absurdly / ridiculously / as ill luck would have it**

boş-boş çənə döymək – to babble / to jabber / to talk hot air / yak-yak-yak / *Amer.* **bla-bla (blah-blah) in the air**

boş-boş danışmaq – to decant from empty into empty / to pour water into a sieve / to mill the wind / to fish in the air/ to talk rot / to spend one's breath / to waste one's breathe/ to beat the air / bla-bla in the air / to chatter / to jabber / to twaddle / to hold an idle talk / to talk a lot of nonsense / to shoot the breeze / to keep chin-wagging with someone / to talk to no purposes / to babble / to have an idle talk / *Cf.* **to wag one's tongue / to beat the air / to shoot the breeze / to talk nonsense / to bullshit / to talk bunkum / to talk through one's hat**

boş-boş gəzmək (avaralanmaq) **– to burn candle at both ends /** *Cf.* **to gape and flap one's ears / to twiddle one's thumbs**

boş-boşuna (əbəs yerə)**– all for nothing**

boş-boşuna çalışmaq – to stuff someone's head with cock-and-bull stories

Boş-boşuna danışır. – *Lit.* **Decant from empty into empty. /** *Cf.* **Pour water into a sieve. / Mill the wind. / Fish in the air. / Beat the air. /** *Amer.* **Bla-bla in the air. / Amanofwordsandnotofdeedsislikeagardenfullofweeds.**

boş-boşunadanışmaq – *Amer.***toshootoffone'smouth**

boş-boşuna əl-ayağa düşmə (əhəmiyyəti olmayan bir iş üçün ora-bura qaçma) **– to fuss about nothing** (bustle, hurry-scurry, running about nothing)

BOŞQAB

boşqab dibi yalamaq – to lick someone's shoes / to lick someone's boots / to lick the mud off someone's shoes / to lick someone's feet

BOŞLUQ

boşluğu aradan qaldırmaq – to bridge the gap

* **boşluq göstərmək – to show a lack of determination**

BOY

boya-başa catdırmaq – to put (set) someone on his (her) feet / to give someone a start in life

boy-buxununa biçilmək – 1. as good as someone / a match for someone / well-matched; 2. like smth. / fitting to smth. / worthy of smth. / suited to smth.; 3. to become (befit) someone to do smth.

boy-buxunundan utan! – you ought to be ashamed of yourself! / you ought to be ashamed of behaving like that!

boylu-buxunlu kişi (görkəmli, gözədəyən, gözəçarpan, qamətli kişi) **– a fine-looking man / a man of handsome presence**

* **boyu dolu olmaq – to be well-nourished**

BOYAXANA

boyaxana küpü deyil – easier said, than done

BOYUN

boynu allaf xoruzunun boynuna dönmək (çox kökəlmək)**– to grow very fat / to be oozing fat** (of persons getting fat because of their life of idleness)

boynu (incəlib) **armud sapına dönmək** (çox arıqlamaq) **– to be worn out / to run thin** (to get thin)

boynu çiynində – 1. (bir kəsin yazıq vəziyyəti) **– to hang one's head / to look downcast (depressed) / to look down in the mouth** (about a miserable, wretched man)**; 2.** (əlacsız, qəmli, fağır-fağır, itaətkarlıqla) **– plaintively / dolefully / mournfully / meekly**

boynu çiyninə qısılıb – *bax***boynu çiynində**

boynu incəlib armud sapına dönmək (çox arıq adam haqqında)**– to become lean / to become amaciated / lean as a rake** (to lose weight, to grow thin)

boynu(n) sınsın! – bad luck to him (her)! / damn him (her)! / blast him (her)! / drat him (her)!

Boynu uzun - beyni boş. – The taller, the duller. / *Cf.* **One is blockhead. / One is dolt. / Someone's head is full of holes.**

boynuna almağa məcbur etmək (etirafa məcbur etmək) **– to force an admission from someone**

boynuna almaq (həqiqəti etiraf etmək, düzünü demək) **– if the shoes fits, wear it / to come clean** (to acknowledge, to confess, to own, to admit the truth)

boynuna almamaq (etiraf etməmək) **– to deny one's guilt / to persist in one's denial**

boynuna atılmaq – 1. to throw oneself on someone's neck / to cling to someone / to set one's cap at someone; 2. to throw oneself at someone / to run after someone / to chase someone; 3. to throw (to fling) one's arms round someone's neck / to fall on someone's neck / to throw oneself on (upon) someone's neck / to throw oneself into someone's arms

boynuna atmaq (süymə k, taqsırlandırmaq) **– to hang smth. on someone / to pin smth. on someone / to pin the blame on smb. / to point the finger at someone / to treat someone like a whipping-boy / to slander someone**

boynuna bağlamaq – *bax* **boynuna qoymaq 2-ci mənada**

boynuna biçilmək (bir kəsin istəyi olmadan)**– to be imposed** (against one's will)

boynuna çanta salmaq – *bax***boynuna torba asmaq**

boynuna çəkmək – *bax***boynuna götürmək**

boynuna düşmək – 1. (kəclik etmək) –**to be stubborn; 2. (**bir kəsin acığına etmək**) – to do smth. out of spite; 3.**(bir kəs məsuliyyətli olmalıdır) **– to fall on someone** (of duty, responsibility, task)**; 4.** (hamilə olmaq) **– to become pregnant**

boynuna götürmək (bir işin həyata keçirilməsinəsöz vermək**) – to assume a responsibility for smth.** (topromise)

boynuna ip salsan da gəlməz (bir kəsi aldatmaq olmur)**– you can't get (lure) someone somewhere for love or money / nothing shall induce (entice, lure, tempt) someone to come here (there)**

şapalaq ilişdirmək – to box one's ear

ŞAPPILDATMAQ

şappıldatmaq (bir kəsi bərk vurmaq) **– to hit (strike) someone hard, with force / to sock someone / to plant one on his nose**

ŞAYİƏ

şayiələrə görə (söz-söhbətə görə) **– it is rumoured / according to the rumours** (from hearsay)

ŞESTYORKA

şestyorka (bir kəsdən asılı vəziyyətdə olaraq buyruqlarını əməl edən insan haqqında) **– someone's errand-boy / person at someone's beck and call**

ŞEY

şey, zad (düzgün söz tapmayanda) **– general vulgar intensifiers /** *Cf.* **shit / fuck**

şey-şüyünü bayıra atmaq – *bax***şələ-küləsini bayıra atmaq**

ŞEYTAN

şeytan – *bax* **meymun kimi dəcəl**

şeytan da baş çıxara bilməz (heç kəs başa düşmür) **– the devil himself couldn't (wouldn't) make head or tail of it**

şeytan da baş çıxarmaz = 1. (dolaşıqlıq, qarışıqlıq) **– even the devil will fail to make it out / a fine kettle of fish /** *Cf.* **the devil only knows what (which, why,** *etc.*)**; 2.** (bir şey barədə böyük narazılıq, hiddət, qəzəb bildirəndə) **– there's no making head or tail of it / it makes the devil himself sick / the devil knows what / it's outrageous! / what hell is all this? / hang it!**

Şeytan əməlinə uyma. – An idle brain is the devil's workshop.

şeytan fəhləsi kimi işləmək (gecə-gündüz nəticəsi olmayan iş görmək) – **someone works in vain till he sweats blood / someone works away hour after hour (day and night, from morning till night) for nothing**

şeytan kirəyə tutub (xeyri,nəticəsi olmayan iş görmək) **– to rush round like a squirrel in its tread-mill / to run round like a squirrel in a cage / to be in a squirrel trap (to be continually on the go) / to work unceasingly, tirelessly / to have no rest at all /** *Cf.* **to work double tides / to keep one's nose to the grindstone**

şeytan nə deyir (tərəddüd edərək bir şeyi istəmək)**– the devil make someone to do smth. / to be longed for smth. / to feel drawn to / one has a great mind to do smth. / someone is itching to do smth.**

şeytan özü də baş çıxarmaz(nə?, kim?, hansı?, necə?, harda?, haçan? – sualların əvəzində) **– it will make the devil himself to see (to hear) / the devil knows what / it's outrageous! (smth. disgusting, shocking) / what the hell is all this? / damn it! / the deuce knows / damned if I know / darned if I know / the devil only alone knows** (what, who, which, how, where, when)

şeytana papaq tikər (yaşına görə çox bilən insan haqqında) **– a desperado**

şeytana papaq tikmək (hazırcavab, bic, diribaş, fərasətli olmaq) **– he'll cut off the soles of your shoes from under you - right on the march /** *Cf.* **a desperado** (of an ingenious, daring, bold man)

şeytana papış tikmək – *bax* **şeytana papaq tikmək**

Şeytana papuş tikir. – He is a desperado. / One is ready-witted. / One is a sharp fellow.

şeytancasına (dəhşətli) **– as all get-out** (terribly)

şeytanı bulağa susuz aparıb susuz gətirər – *bax***şeytana papaq tikər**

* **şeytanın ayağını sındırmaq** (bir insan bir yerə nadir hallarda gələndə bu ifadə işlənilir) **– it is spoken about the man, when he comes somewhere very rarely**

şeytanın da ağlına gəlməz (heç kəs bunu bilməz) **– not to come into someone's head / not to enter someone's head / not to cross someone's mind / not to occur to someone / an inadmissible idea**

şeytanın dal ayağı (hədsiz-hüdudsuz bic insan haqqında)**– to shift and shuffle like a fox**

şeytanın əlinə çöp verər – ***bax*** **şeytanı bulağa susuz aparıb susuz gətirər**

Şeytanın qulağına qurğuşun! (Allah göstərməsin!) **– God forbid! / Heaven forbid! / On no account! / Perish the thought! / Save us!**

şeytanlıq etmək – *bax* **çuğulluq etmək**

ŞƏBKOR

şəbkor – *bax***gecə koru**

ŞƏFQƏT

şəfqət bacısı – sister of mercy / sister of charity (hospital nurse)

ŞƏHƏR

Şəhərdə onuncu olmaqdansa, kənddə birinci ol. – *Lit.* **It is better to be the first in the village, than to be the tenth in the town.**

ŞƏXSƏN

şəxsən özü – in person / in the flesh / as ever was

ŞƏXSİ

şəxsi heyət – personnel / members

şəxsi iş – personal records / documents / dossier

ŞƏXSİYYƏT

şəxsiyyət – 1. (tam, bütöv xasiyyətli insan) **–** ***all of a piece; 2.** (çox maraqlı və qeyri-adi insan) **– a character** (an interesting and unusual person)

ŞƏKİL

şəkil kimi gözəl (çox gözəl) **– as pretty as a picture** (very pretty)

... şəkildə (bir kəsi və ya bir şeyi hansısa bir tərəfdən təqdim etmək) **– to see someone in a certain light / to paint smth. in certain colours**

şəkli korlayan (ümumi mənzərəni korlayan)**–** ***a blot on the landscape**

ŞƏKK

şəkk gətirmək (qan qaraltmaq, övqatını təlx etmək, əhvalı pozmaq) **– to cast doubt on smth. / to call smth. in question**

şəkk-şübhəsiz (hökmən, mütləq, yəqinən) **– as sure as eggs is eggs / as sure as fate / as easy as winking / I'll bet my cookie / as sure as a gun / as sure as death / as sure as I'm sitting here / as sure as you're born / as sure as I'm alive /** *Amer.* **as sure as God made little (green) apples /** *Amer.* **as sure as shooting**

şəkkvermək (bir kəsi ruhlandırmaq, sakit etmək)**– to put someone at his ease**

ŞƏKLİNDƏ

(bir kəsin) **şəklində** (konkret insanda) **– in someone / as represented by someone / in the person of someone**

ŞƏLƏ

şələni qoy, gəl dalaşaq (səbəbsiz dava etmək) **– to challenge someone without any reason**

şələsini qoltuğuna vermək – *bax***şələ-küləsini qoltuğuna vermək**

şələsini sudan çıxara bilmək – *bax* **çulunu sudan çıxarmaq**

şələsini sudan çıxarmaq (maddi cəhətdən güclə dolanmaq) **– to make both (two) ends meet / hardly make ends meet / to make buckle and tongue meet**

şələsini tutmaq (həddindən artıq mal-dövlət sahibi olmaq) **– to rake in some cash / to rake in the shekels / shovel in the money / to have colossal wages (profits, heaps of money)**

ŞƏLƏ-KÜLƏ

şələ-küləsini bayıra atmaq (bir kəsi qovmaq) **– to give someone the gate / to fire someone / to sack someone / to give someone tha sack / to throw away one's bag and baggage**

şələ-küləsini dalına sarımaq – *bax* **şələ-küləsini bayıra atmaq**

şələ-küləsini qoltuğuna vermək – *bax* **şələ-küləsini dalına sarımaq**

şələ-küləsini yığışdırmaq – *bax* **şələ-küləsini yığmaq**

şələ-küləsini yığmaq (şeylərini bir yerə yığmaq) **– to gather one's bag and baggage / to collect one's bits and pieces**

ŞƏN

Şən arvad həyatın şənliyidir. = A cheerful wife is the joy of life.

şən gülüş – sunnysmile

şənlik – * cakes and ale

ŞƏNBƏ

şənbəsiz həftə olanda (bilinmir nə vaxt, heç vaxt) **– who knows when / maybe never / the day when pigs fly / when the moon turns green cheese / when two Sundays come together / tomorrow come never / when hell freezes over**

ŞƏR

şər atmaq – *bax* **böhtan atmaq**

Şər deməsən xeyir gəlməz. – Nothing so bad, as not to be good for something. / But there is no good without evil. / The darkest hour is that before the dawn. / *Cf.* **No great loss without some small gain. / Bad luck often brings good luck. / It's an ill wind that blows nobody (no one) any good. / Every cloud has a (its) silver lining. / A blessing in disguise.**

şər qarışana kimi (çox gec saata qalmadan) **– till the cows come home** (until sunset)

ŞƏRAB

şərab – *a hear of the dog

Şərab dənizdən çox insan məhv edib. = Bacchus has drowned more men than Nepture.

ŞƏRAİT

şəraitdən asılı olaraq = depending on circumstances

ŞƏRƏF

(bir kəsə) **şərəf gətirmək** (bir kəsin qabiliyyətini göstərir və ya bir şeyin səciyyəvi xüsusiyyətlərini təsvir edir) – **to do credit to someone or smth.**

şərəf haqqı!(and verəndə) **– word of honour! / as I live by bread!**

şərəf işi – *Fr.* **affaire d'honneur / affair of honour**

şərəf lövhəsi – a roll of honour

şərəfə! (sağlıq) **–** * **happy days!**

...şərəfinə (hansısa hal-hadisənin, əlamətdar bir günün, bayramın şərəfinə)**–in honour of someone or smth.**

(bir kəsin və ya bir şeyin) **şərəfinə sağlıq demək – to give a toast to someone or smth.**

şərəfiniitirmək– tomakeoneselfcheap

şərəflisürgünə göndərmək (bir kəsi tutduğu vəzifədən azad edərək daha da yüksək vəzifəyə qoymaq) **– tokicksomeoneupstairs**

şərəfli yer – pride of place

ŞƏRİK

şərik olmaq (bir kəslə bir işdə bərabərhüquqlu olmaq) **– on a sharing (co-operative) basis / with equal shares / share and share alike**

şərikli çörəyimiz yoxdur (bir kəsi başqa insanla heç nə bağlamır) **–** *Lit.* **we are not to baptize (to christen) each other's children / we're not standing god**

father to each other's children (*i.e.* why should I / we be too ceremonious?) **/ there's no need to stand on ceremony with him (her, them)**

şərikli malımız yoxdur (küsməyə, dava etməyə, düşmənçilik aparmağa əsas yoxdur) **– we (you, they) have nothing to quarrel over / there's nothing to make bad feeling between us (you, them)**

ŞƏRT

Şərti şumda kəs, xırmanda yabalaşmayasan. (Şərtləri qabaqcadan aydınlaşdıraq.) – *Cf.***Aman'swordisworthmorethanmoney. / Ifyoupledgedon'thedge.**

Şərti şumda kəsək, xırmanda yabalaşmayaq. – *bax* **Söhbət danışıqdan keçər.**

şərti şumda kəsmək (sonradan mümkün olan narahatçılıqları yaşamamaq üçün, baş verməsin deyə) **– to make arrangements with someone about smth. in advance / to come to an agreement beforehand**

şərtsiz refleks – an unconditioned reflex

ŞƏST

şəstini sındırmamaq (qürurunu itirməmək) **– not to lose pride / to keep an arrogance / to keep a majesty**

ŞƏTƏL

şətəl qatmaq (bir kəsə bilərəkdən mane olmaq) **– to put a spoke in someone's (the) wheel / to throw a spanner in (into) the words / to put grit in the machine /** *Amer.***to throw sand in the wheels / to cut (clip) someone's wings**

şətəl-qətəl qatmaq – *bax* **şətəl qatmaq**

ŞIDIRĞI

şıdırğı getmək (oynamaq tərzi barədə) **– to cut capers** (to perform all kinds of intricate steps, figures, *etc.*)

şıdırğı oynamaq (ayaqları ilə gözəl oynamaq) –**to stagger / to stumble / to weave along / to reel / to do financial steps (when drunk) /** *Cf.* **to walk like a Virginia fence /** *Amer.***to make a Virginia fence / to do some fancy footwork (when dancing) / to execute fancy twists and turns**

şıdırğı yağış (güclü yağış haqqında)**– pour with rain** (to rain very hard)

ŞIQ

şıq (çox eleqant) **– spick and span**

şıq geyinmək – 1. (ən son dəbə uyğun yüksək zövqlə geyinmək) **– to cut a dash / dressed to kill /** *Amer.* **to cut a wide swath** (to dress elegantly)**; 2.** (özünü göstərmək) **– to strut like a turkey-cock; 3.** (geyiminə xüsusi diqqət yetirən şəxs haqqında) **– dressed to a tea**

şıq görünmək (təptəzə, dəbdəbəli geyinmək) **– to look as if one just came out of a bandbox**

ŞILLAQ

şıllaq atmaq – 1. (nankorluq etmək, yaxşılıq bilməmək) **– to be a thankless** (an unrewarding) **man; 2.** (lovğalanmaq, qudurmaq) **– to turn up one's nose / to poke one's nose up in the air / to be on the high horse / to do the grand / to get a swelled head / to get conceited / to give oneself airs / to put on airs / to get too big for one's boots /** *Amer.* **pile on lugs / to put on the lugs** (to become more and more insolent)

ŞILTAQLIQ

şıltaqlıq (tühaflıq, qəribəlik, ədabazlıq) **– *a bee in bonnet**

ŞİDDƏT

şiddətlə tənqid etmək (tamamilə pisləmək, üstünü açmaq) **– to tear to tatters**

şiddətli vuruşmaq – * to fight like Kilkenny cats

şiddətli yazmaq arzusu – the literary urge / the itch to write

ŞİLLƏ

şillə (təhqir) **– a slap in the eye / a smack in the eye**

şillə dartmaq – *bax* **şillə vurmaq**

şillə tutuzdurmaq (şillə vurmaq) **– to give someone a slap / to smack someone's face / to give a box on the ear / to paste someone / to wipe someone's nose / to plant one's fist on someone's nose / to give someone a black eye** (to slap someone in the face)

şillə vurmaq (bir kəsin üzündən sillə vurmaq) **– to paste someone / to clock someone / to sock someone hard / to wipe someone's nose / to hammer home / to bash someone one / to sock someone hard / to give someone a smack in the kisser / to slap someone in the face / to cuff (box) someone's ears / to bounce / to clock / to clonk / to swipe / to lay one on right between the eyes** (also *fig.*) **/ to box someone's ear / to give someone a thick ear / to give someone a slap**

şillə yedizdirmək – *bax***şillə tutuzdurmaq**

şillə yemək – to get a box on the ear / to get a slap in the face (also *fig.*)

ŞİR

şir kimi vuruşmaq (şiddətli vuruşma barədə) – **to fight like a lion**

şir ürəyi yeyib (mərd, qorxmaz, cəsarətli insan haqqında) **– he (she) has a big (generous) heart / he (she) has a heart of gold**

şirürəkli (mərd insan haqqında) **– lion-hearted man / a man of his hands / the man of iron**

ŞİRƏ

şirəyə yığılan milçək kimi (bir kəsdən əl çəkməmək) **–** *Lit.* **as flies on honey /** *Cf.* **as sweet as honey**

ŞİRİN

Şirin aşına zəhər qatma. – If you're well off you don't seek better. / *Cf.***Let well alone. / Enough is as good as a feast. / The best is oftentimes the enemy of the good. / Why look for a good thing when you have one?**

şirin cana (canına) qəsd etmək (çoxlu işləmək) **– to work double tides / to hold one's nose to the grindstone / to roll up one's sleeves and set to work / to show great zeal for one's work / to work away hour after hour** (to work unceasingly, tirelessly)

şirin candan adamı bezdirmək – **1.***bax* **mişarlamaq; 2.** (bir kəsi dəli etmək, özündən çıxarmaq) **– to make one's hackles rise / to raise one's hackles**

şirin candan bezdirən (adamın əsəbləri ilə oynayan, zəhlətökən) – **a pain in the neck**

şirin danışmaq – to speak kindly / pleasantly

Şirin dil adama dost qazandırar. – *Lit.* **A friendly calf sucks twomothers.**

şirin dilə tutmaq (bir kəsi yola gətirmək məqsədilə, aldatmaq üçün mehribancasına, şirin sözlərlə dilə tutmaq)**– tofoolsomeonebyfinewords / toputsomeoneoffwithfairwords / tofoolsomeonewithsmoothtalk / totrytotalksomeoneround**

şirin dilini işə salmaq – *bax* **şirin dilə tutmaq**

şırin dillə – with sweet mouthed / smooth-spoken

Şirin söz daşdan keçər. – A soft answer turneth away wrath.

şirin sözlə – with sweet mouthed

şirin vaxtında (ən yaxşı məqamında) **– when the talk was at its height / peak**

şirin yerində (ən maraqlı məqamında) **– at the most interesting moment**

şirinlik (daxili və xarici gözəllik)**– sweetness and light**

şirinsevən (şirniyyatı sevən adam) **– to have a sweet tooth**

şirni dəlisi (şirniyyat sevən) **– one has a sweet tooth**

ŞİRNİKDİRMƏK

şirnikdirmək (bir kəsi tərifləmək, göylərə qaldırmaq) **– pat someone on the back (head) / to give someone a pat on the back**

ŞİRNİYYAT

şirniyyatdan keçə bilməmək (şirniyyatı xoşlamaq) – **to have a sweet tooth** (to be excessively fond of dessert, especially ice cream, sweets, pies, *etc.*)

ŞİŞ

şiş (yox) **– fig** (a gesture denoting contempt, derision or refusal)

şiş sənə – you'll have nothing

ŞİŞ

şiş olub gözə girmək (bir kəsi yormaq, əldən salmaq, bir kəsə mane olmaq, bir kəsin zəhləsini tökmək) **– to stick in one's throat like a fishbone / to make one sick / it won't go down any more**

şişə taxıb gözə tutmaq (bir kəsə mənəvi zərbə vurmaq, əziyyət vermək) – **to rub salt in (into) someone's wound (wounds) / to reopen old sores / to aggravate the wound / to torment someone**

ŞİŞİRTMƏK

şişirdib fil eləmək (balaca, xırda məsələni böyütmək) **– to make a mountain out of a molehill**

şişirtmə! (düz danış, üstünə qoyma!) – **don't carry it too far! / don't lay it on! / draw it mild!**

şişirtmək – 1. (bir kəsin və ya bir şeyin mənfi cəhətlərini olduğundan da pis qələmə vermək) **– to lay it on thick / to pile on the agony / to exaggerate, overdo smth. / to lay on the colours too thickly / to blacken the picture; 2.** (bir kəsin və ya bir şeyin müsbət cəhətlərini olduğundan da yaxşı təqdim etmək) **– to produce smth. ponderable / to deliver up smth. significant /** *Cf.* **to make a do (a go) of it; 3.** (çox üstünə qoymaq, yalandan böyütmək, olduqca uydurma sözlər danışmaq) **– to draw the long bow**

ŞİŞMAN

şişman (dolu adam haqqında) **– as plump as a partridge**

ŞİŞMƏK

şişmiş qulaq – * a thick ear

ŞİT

şit söz – *bax* **duzsuz lətifə**

şit yağ kimi canına yayılmaq (bir kəsin xoşuna gəlir, bir kəsə ləzzət eləyir) **– doing great pleasure, refreshing / exquisite, delightful /** *Cf.* **not half bad / that's the stuff**

şit zarafatlar (gülməli olmayan əhvalatlar) **– a feeble witticisms / a feeble cracks**

şitini çıxarmaq – *bax* **şitini-şorunu çıxarmaq**

şitini-şorunu çıxarmaq (ağ etmək, artıq söz demək və ya yersiz hərəkət eləmək) **– to pass all bounds / to overstep the limits / to run to extremes**

ŞİVƏN

şivən qoparmaq (hönkürtü ilə ağlamaq) **– to cry one's head off / to howl one's eyes out / to set up a fearful howl / to howl dismally / to bellow out loud / to bawl one's head off / to cry buckets**

şivən salmaq (var gücü ilə qışqırmaq) **– to scream (or to yell) blue murder**

ŞOK

şoka düşmək – *bax* **gözləri kəlləsinə çıxmaq**

şoka salmaq (başqalarını çaşdırmaq, təəccübləndirmək) **– to raise one's eyebrows / to blow or to knock someone's socks off** (to shock people)

ŞOPAQOLİK

şopaqolik (alış-veriş sevən və tez-tez edən insan haqqında) **– trademaker**

ŞORBA

şorba qızdırmaq (üzə gülmək, yaltaqlıq etmək) **– to flatter one's vanity / to signify an assent (to) / to echo someone / to play up to someone**

ŞORGÖZ

şorgöz (arvadbaz, qadınların vurğunu olan, əxlaqsız, pozğun kişi haqqında) **– a philanderer**

ŞORTU

şortu (yüngül həyat tərzi yaşayan, əxlaqsız, pozğun qadın haqqında) **– a streetwalker / a loose woman / whore** (prostitute)

ŞOTLANDİYA

şotlandiyalı – blue bonnet

ŞÖHRƏT

şöhrətləndirmək (bir kəsi məşhur etmək) **– to put someone on the map**

şöhrətpərəstlik – * a fire in one's belly

ŞÖVQ

şövqə gətirmək (bir kəsi ürəkləndirmək) **– to warm someone up** (to make someone more lively or enthusiastic)

ŞPARQALKA

şparqalka (imtahanda köçürmə) **–** *Amer.* **cheat sheet / crib / cold copy / bug out / animal / beast / horse / pony / mule / trot / bicycle / jack / plug / gauge / growl / rack**

ŞURA

şura gəlmək – *bax***qanı coşmaq** *1-ci mənada*

ŞÜA

şüa kimi ayrılmaq – to radiate

ŞÜAR

... şüarı altında (hansısa bir fikir naminə, müəyyən məqsədlə idarə olunaraq) **– under the badge of smth. / guided by smth. / under the banner of smth.**

ŞÜBHƏ

şübhə altında olmaq – to be hooked / to be kept under observation (to be under suspicion)

Şübhə doqquz gün çəkər. – * A wander lasts but nine days.

şübhə yaratmaq (bir kəsdə şübhə oyandırmaq) **– * to raisethe eyebrows**

şübhədən kənar – *Amer.* **in the clear**

şübhələnirəm (mənə elə gəlir ki) – **something tells me**

şübhələri atmaq (bir kəsin sözünə inanmaq) **– to give someone the benefit of the doubt**

şübhələri dağıtmaq (artıq tərəddüd etməmək) **– to put smth. to rest / to set smth. at rest / to make someone's mind easy / to put one's mind at ease / to set one's mind at rest**

şübhəli adam (xasiyyəti, niyyətləri, fikirləri, planları məlum olmayan insan haqqında)**– a dark horse**

şübhəsiz (təbii) **– * hands down / it stands to reason / without a shadow of a doubt / and no mistake** (no doubt)

ŞÜKÜR

şükür Allaha – 1. (sağ-salamatlıqdır) **– thank God** (all is well)**; 2.** (hər şey yaxşıdır) **– everything in the garden is rozy** (everything is all right)

ŞÜŞƏ

şüşə kimi – 1. (tərtəmiz) **– clean (bright) as a new pin / neat as a bandbox / spick and span / neat as a new pin; 2.** (saf) **– having a clean record / a clean sheet / a clean state; 3.** (ayıq) **– as sober as a judge (a parson) / as smooth as silk;4.** (hamar) – **as smooth as glass**

ŞÜUR

şüurun səsi (sağlam düşüncə) **– the voice of reason**

- T -

TA

Ta qocalığa qədər (uzun müddət) **– till a great age**

TABAĞ

tabağ başında sınmaq – 1. (şikəst olmaq, məhv olmaq) **– to break one's own neck; 2.** (müvəffəqiyyətsizliyə uğramaq) **– to break one's own neck** (while doing smth.) **/ to come a cropper over smth. / to fall through**

TABE

tabe olmamaq (tabelikdən çıxmaq) **–** * **to have one's leg over the harrows**

TABUT

tabutda olmaq (ölü olmaq) **– to be in a coffin /** *Cf.* **to be stiff / to be dead as a doornail** (to be dead)

(bir kəsin) **tabutunu çıxartmaq** (ölünü çıxartmaq, dəfn mərasimi) **– bearing-out / carrying-out** (of bier, at funerals)

TAC

tac edib göylərə qaldırmaq (bir kəsi yüksəltmək) – **to place (to put or to set) someone on a pedestal**

TAXÇA

taxçada-boxçada nə var açıb tökmək (hər şeyi danışmaq) **– to put light through someone / bring someone to light / to bring someone in (into) the open / to make known / to give publicity / to tell everything that one knows / to reveal one's secret**

TAXT

taxtdan salmaq (bir kəsdən ümidini kəsmək, məyus olmaq)**– to knock someone off his pedestal**

Taxtım üçün deyiləm, baxtım üçün deyirəm. – *bax***Qarnım üçündeyil, qədrim üçündür.**

Taxtına nə baxırsan, bəxtinə bax. – *bax***Qızıl taxtın olunca, qızıl bəxtin olsun.**

TAXTA

taxta kimi arıq – *bax***boynu incəlib armud sapına dönmək**

Taxta qaşıq ağız yırtar. – *Cf.* **An empty hand is no lure for a hawk.**

taxtabaş (key insan haqqında) **– one has nothing between his (her) ears** (of a foolish man)

taxta-para üstündə (olum ölüm arasında)**– within an inch of death**

taxta-para üstündə olmaq (qalmaq, oturmaq) (təhlükədə olmaq) **– to hang by a thread / to hang on a thread / to hang on a hair / to swing (be, hang, tremble) in the balance / to be within an inch of death**

taxtaya dönmək (arıqlamaq) **– to consume** (to grow weak, to pine away)

TAKTİKA

taktikanı dəyişmək (bir kəslə davranışı fərqli etmək, siyasəti olduğundan fərqli aparmaq) **– to change one's battery**

TAQƏT

taqətdən düşmək (əldən düşmək) **– to be ready to drop with weariness / to wear thin /** *Cf.* **to be dead-beat / to be at the end of one's tether / to be dropping with fatigue (to be / to become / to get exhausted)**

taqətdən düşüncə işləmək (ağır iş görərək özünü əldən salmaq) **– to work very hard /** *Cf.* **to break one's back / to beaver away / to bust a gut / to toil and moil**

taqəti qırılmaq – *bax* **taqətdən düşmək**

TAQSIR

(bir kəsin) **taqsırı üzündən** (...üzündən, ... ucbatından, ...sayəsində) **– thanks to someone**

TALAMAQ

(bir kəsi) **talamaq** (bir kəsin qonaqpərvərliyindən sui istifadə etmək) **– to eat someone out of house and home**

TALAN

talan (məğlubiyyət) **– a bloody nose**

talan etmək (müflis etmək) **– to lay waste**

TALE

tale dönüşü – fortune's wheel

tale yollarına çıxan insan – * a strange bed fellow

Taledən qaçmaq olmaz. =No flying from the fate.

talelə barışmaq (vəziyyətlə razılaşmaq)**–to take one's chance / to bite (on) the bullet / to make the best of a bad job** (to accept a bad and difficult situation and do as well as one can)

taleyə boyun əymək (çətin vəziyyətlə barışmaq, əzab-əziyyətə mətanətlə dözmək, qismətlə barışmaq) **– to grin and bear** (to accept a situation one doesn't like because he / she can't change it)

taleyi ilə oynamaq – *bax***riskə getmək**

taleyi sınamaq (ələ düşən imkandan istifadə etmək)**– to press one's luck / to take one's chance / to try one's fortune**

Taleyi tükdən asılıdır. – Hang by a thread. / Hang on a hair. / Swing in the balance. / Be within an inch of death.

taleyi uğurlamaq (özünü xoşbəxt sayaraq, Allahına şükür etmək)**– to count one's blessings**

taleyin acılıqlarına mərdliklə dözmək – to take the rough with the smooth

taleyin çarxı – Fortune's wheel

taleyin dönüklüyü (uğurlar və məğlubiyyət, şadlıq və qəm) **– ups and downs**

taleyin qisməti (bəxt) **– the luck of the draw** (the fact that chance decides something in such way that one cannot control)

taleyin oyunu (həyatda çox əziyyətlər görən, sınaqlardan keçən insan haqqında) **– a ball of fortune**

taleyinə çıxmaq – *bax***payına düşmək**

taleyinə lənət oxumaq (özünü söymək) **– to curse one's star**

taleyinə şükr oxumaq – to bless one's star

(bir kəsin) **taleyini qabaqcadan müəyyən etmək – to shape someone's ends**

taleyin bütün dönüklüyünə səylə dözmək – to bear one's cross / to carry the cross

taleyin özü onun əksinə idi (hər şey onun əleyhinə idi) **– the stars were against it –**

taleyini sınamaq (özünü təhlükəyə salmaq) **– to tempt fate / to tempt fortune / to tempt providence**

TAM

tam əmin olmaq – * to feel in one's bones

tam itaətdə saxlamaq (bir kəsin tam təsiri ya hökümü altında olmaq) **– to be under someone's thumb / to be in someone's pocket / to be in the hollow of someone's hand / to take someone or smth. into one's own hands / to be petticoat-ridden / to be under petticoat government /** *Cf.* **to be under one's wife thumb / to be a henpecked husband / to be inned (tied) to one's wife's apron strings**

tam qaydasında (hər şey əla, normada)**– Shipshape and Bristol fashion**

tam qələbə – * a clean sweep (about victory)

tam mənası ilə (həqiqətdə, reallıqda) **– in the proper (true, full) sense of the word (term) / literally**

tam süküt – a dead silence

tam sürətlə (maksimum sürətlə, çox cəld) **– at full speed / with full steam on**

tam sürətlə getmək (başladı var gücü ilə) **– and then it began / and then it all started /** *Cf.* **now we're in for it**

tam tərkibdə –**Lat.***in a body**

tam uğur – a winning streak

tam yaraşır – it suits someone perfectly (just right) **/ it's just right / it's exactly right**

TAMAH

tamah dişini çək (gözləmə!, güman etmə!) **– don't wait for smth. / don't expect it**

tamah etmək (bir şeyə meyl etmək, əl çatmazı çox istəmək) **– to lick one's chops / to smack one's lips /** *Cf.* **one's mouth waters (is watering) / one is simply craving for smth.** (to gaze longingly at someone or smth.)

tamaha salmaq (bir kəsdə maraq oyatmaq) **– to tempt (entice, seduce) someone with smth.**

Tamahkar öz nəfsinin quludur. – Desire is stronger than compulsion. / A good will does more than compulsion. / *Cf.* **Where there's a will there's a way. / Desire has no rest.**

TAMAMİLƏ

tamamilə – 1. (çox ciddi) **– with no holds barred / up hill and down dale / with all might (force) / with (by) a strong hand** (to curse someone)**; 2.** (hər cəhətdən) **– out-and-out / completely / extremely / in the extreme / root and branch / to the end / thoroughly / down to the ground / root and branch; 3.**(bütövlükdə) – * **hook, line and sinker / lock, stock and barrel / through and through / neck and crop** (entirely, altogether, thoroughly)

tamamilə ayıq – quite sober / *Cf.* **as sober as a judge**

tamamilə keçəl – as bold as an egg / as bold as a coot

tamamilə kor – * **blind as a beetle**

tamamilə qurtarmış – all over (completely finished)

tamamilə quru – * as dry as a chip

(bir kəsi) **tamamilə özünə tabe etmək – to make someone eat out of one's hands / to twist someone round one's little finger / to be able to get anything out of someone**

tamamilə razı olmaq – go all the way

tamamilə razı olmamaq – categorically / flatly (object) / utterly (be opposed to smth.)

tamamilə yerinə düşmək (bir şeyi tapmaq, bilmək, anlamaq, duymaq) **– to hit the right nail on the head** (to guess smth.)

TAMAM-KAMAL

tamam-kamal – 1. (başdan-ayağa kimi) **– to one's finger-tips / to one's finger-ends / to the finger-nails / with bag and baggage / with all one has got / lock, stock and barrel; 2.** (tamamilə, büsbütün) **–** *Cf.* **to lose one's shirt (pants) at cards**

tamam-kamal məhv etmək (bir şeyi bütöv ləğv etmək və ya məhv etmək) **– to abolish or wipe out completely**

TAMAŞA

tamaşa göstərmək – *bax* **qiyamət qoparmaq**

tamaşa üçün (diqqəti cəlb etmək, göstərmək üçün) **– for show / for form's sake / for the sake of appearances / to save appearances / to make a show of smth. / to make someone believe**

tamtəraqda bəzənmiş (gecə, qiyafət paltarı) – **in fine feather / in full fig**

TANIMAQ

tanıyan-tanımayan (bütün aləm) **– all the world**

TANINMAQ

tanınmamış adam (hər hansı bir işdə az tanınan insan) **– a dark horse** (an unknown man to the general public)

tanınmış adam (kütlənin sevimlisi, kumir) **– a golden boy**

tanınmış alim – a prominent scientist / distinguished scientist

tanınmış olmaq (populyar olmaq)**– to ride high**

tanınmış olmamaq – to be bare of credit

tanınmış siyasi xadim – * favourite son

TANIŞ

tanış olmaq – to enter into relations with someone

tanışlığım var – *a speaking acquaintance

tanışlıqla (qanunsuz yol ilə, rüşvət yolu ilə bir şeyə nail olmaq)**– on the quiet / through a pull / by pulling strings / through (by) backstairs influence / to get something through the back door / to do (get) smth. by backstairs influence** (having a pull in, in an unfair) **/** *Cf.* **finagle smth.**

TANRI

tanrı günü görməmək – *bax***gün görməmək**

Tanrı verəni, qurd yeməz. – What God gives, nobody takes.

tanrının verən (var) günü – *bax* **Allahın verən (var) günü**

tanrısına təpik atmaq (həyatından narazı olaraq bir kəsin yaxşılığına pisliklə cavab vermək) **– to answer for someone's kindness by black ingratitude** (unkindness)

TAPMAMAQ

(bir yerdə) **tapmamaq** (görməmək) **–** *Cf.* **to kiss the post**

TAPPILTI

tappıltı səsi – pitter-patter (sound of quick)

TAPŞ

tapş (himayəçilik, dostbazlıq, qohumbazlıq, tanışbazlıq) **– protection** (protectionism, pull, influence, pressure on the part of the higher organ of government)

tapş etmək (tapşırmaq) **– to intercede for someone on someone's behalf**

TAP-TUP

tap-tup (səs-küy) **– a hell of a noise** (an infernal din)

TARAZLIQ

tarazlığı pozmaq (gündəlik, ənənəvi həyat tərzini pozmaq) **– to rock the boat / to upset the tenor of someone's life / to throw someone of / to upset smb. / to unsettle someone / to upset someone's routine / to strike up someone's heels**

TARİX

tarixə düşmək (tanınmaq, populyarlıq qazanmaq) **= to go down in history / to make history**

tarixi qərar (ciddi dəyişikliklər edən qərar) **– an epoch-making decision**

tarixin dərsi (çıxarılan nəticə) **– the lesson of history**

TAR-MAR

tar-mar – 1. (böyük narazılıq, dava) **–** ***Lit.*** **the slaughter of Mamay / a regular Tatar massacre / brawl; 2.** (səliqəsiz yer) **– topsy-turvy** (messy)

tar-mar etmək (rəqibi, düşməni məhv etmək)**– to smash the enemy / to blow someone up**

TAPANCA

tapanca kimi açılmaq – *bax* **barıt kimi açılmaq**

TAPDAQ

tapdaq altında qalmaq (bir kəsin əlində, ixtiyarında, hökmündə, təzyiqində) – **to be under the heel of someone**

tapdaq altında olmaq – *bax***tapdaq altında qalmaq**

TAPMACA

tapmaca danışmaq (açıq danışmamaq) – **to beat about the bush**

TAPPILTI

tappıltı səsi (yağış və ya ayaq səsi) – **pitter patter** (sound of quick, rain or foot)

TARİX

tarix açmaq(yorucu, uzun-uzun danışmaq)– **to drag smth. out / to spin smth. out / to fuss about / to mess about / to dawdle / to waste one's time / to harp on the same string**

"Tarix-Nadir" açmaq –*bax***tarix açmaq**

tarixin çarxını döndərmək – to reverse the course of history

TAS

tasa-baxan – *bax* **fala-baxan**

TASA-PASA

tasa-pasası yatdı (bir kəs sakitləşdi, hirsi soyudu) – **someone recovers his composure / someone calms down / someone settles down**

tasası yatmaq (bir kəsin acığı soyudu) – *Lit.* **to change one's anger on favour** (mercy)

TAT

... tat dəftərində də yazılmayıb – *bax***tat dəftərində də yoxdur**

... tat dəftərində də yoxdur (qeyri-adi bir şey barədə) **– out of the common (general) run**

tatı çevir, tatı tut (köhnə qayda ilə, yenilik olmadan) **– no changes / nothing has happened / the mixture as before** (the things are the same as they were before)

TAVAN

tavan altında qalan (yatan) deyil – 1. (bir kəsə layiqli cavab verən insan haqqında) **– someone gives as good as one gets / someone pays back (repays, answers) in kind / someone does not leave smth. unanswered / someone is quick to answer back / one gives someone tit for tat; 2.** (bir kəsə minnətdar olmaq, mükafat vermək) **– to repay someone in kind / not to forget someone's kindness, service,** *etc.*

tavan altında qalmamaq – *bax* (bir kəslə onun) **dilində danışmaq**

TAY

tayı-bərabəri olmayan (hamıdan, hər şeydən fərqli) **– one of a kind / out of this world**

tayı-bərabəri yoxdur (rəqibi yoxdur) **– beyond compare / one of a kind** (unrivalled, the only one like this)

tayı deyil (keyfiyyətlərinə, qabiliyyətinə, cəmiyyətdə tutduğu mövqeyinə görə bir kəsə yaraşmayan həyat yoldaşı haqqında) **–no match for someone / not someone's equal**

tayı kimi (bərabəri kimi danışmaq, bir iş görmək) **– as an equal / enjoying (exercising) equal rights / on equal terms / on equal footing with someone**

tayıdır (xüsusiyyətlərinə görə bir kəsə yaraşır) **– a match for someone / someone's equal**

Taylı tayın tapmasa, günü ah-vayla keçər. – *Lit.***A goose is no playmate (not a good companion) for a pig. /A sow is no match for a goose. /** *Cf.* **You can't put the wolves in with the sheep.**

TAYA

tayada iynə axtarmaq (çətin tapıla bir şeyi axtarmaq, boş işlə məşğul olmaq) **= to look for a needle in a haystack**

TEATR

teatr işlərindən qeybət etmək – to talk green-room

TELEFON

telefon aç (zəng et) **– drop a dime** (call me)

telefondan asılıb qalmaq (uzun müddət telefon danışığını aparmaq) **– to keep on phoning / to be always on the phone /** *Cf.* **to hog the phone**

telefondan sallanıb qalmaq – *bax* **telefondan asılıb qalmaq**

telefondan tüstü çıxır (bir kəsə çoxlu telefon zəngləri vurulur) **– someone's telephone has got hot** (because of constant ringing)

TELEVİZOR

televizor aludəçisi (bütün günü televizora baxan adam) – **a couch potato** (a person who is addicted to watch TV all day)

TEZ

Tez alışan, tez yanar. – A wonder lasts but nine days, and then puppy's eyes are open.

Tez ayrılan, az göz yaşı tökər. – The shorter the parting, the less tears. / Long farewells mean more tears. / A long goodbye only means extra tears.

tez baxıb gözünü çəkmək (bir kəsə nazla baxmaq) **– to give the glad eye to someone**

tez çatmaq (bir yerə tez gəlib çatmaq)**– to make good time**

Tez duran, tez evlənən peşman olmaz. – The early bird catches the worm.

Tez qaçan, tez yorular. – Slow but sure. / Make haste slowly. / More haste, less speed. / Slow and steady wins the race. / *Cf.* **Haste makes waste. / Take heed will surely speed. / The furthest way about is the nearest way home.**

Tez qızan, tez soyuyar. – *Lit.* **Who is quicker in a temper, that cools down sooner.**

Tez qızan, tez sönər. – Soon learnt, soon forgotten.

tez ol görək! (tərpən!) **– now then!**

tez özündən çıxmaq (tez hirslənmək, mübahisə etmək, qışqırmaq) **– to fly off the handle at the drop of a hat /** *Cf.***to get one's monkey up / to blow one's top / to get one's shirt out (off) / to lose one's shirt** (to flare up)

tez-tez təkrar etmək (tez demək) **– to rattle on / to speed on**

tez tərpənəndir (cəld işi görən insan haqqında) **– light on one's feet / quick off the mark** (brisk, active, always ready)

Tez yatan və tez duran insanda - can sağlığı, dövlət və ağıl olar. = Early to bed and early to rise makes a man healthy, wealthy and wise.

TEZBAZAR

tezbazar – *bax* **əlimyandıda**

tezbazar eləmək – 1. (bir işi tez görmək) **– to do smth. in a rush / to hurry through smth.** (to do smth. quickly)**; 2.** (necə gəldi) **– to do smth. in a slipshod way / to do smth. in an off-hand way / to do smth. in a rough and ready fashion / to do smth. in rough haste** (to do smth. just anyhow)**; 3.** (bir kəslə və ya bir şeylə tez qurtarmaq) **– to do away with someone / to put an end to smth.**

tezbazar olmaq – 1. (bir işin tez qurtarmağı barədə) **– its end is quickly approaching / to draw to its close / to come to an end; 2.** (məhv olmaq)**– to be wiped out**

TEZQIZIŞAN

tezqızışan – 1. (tez özündən çıxan adam) **– hot blood; 2.** (şənliyi sevən) **– lively**

TEZLƏŞDİRMƏK

tezləşdirmək (yaxınlaşdırmaq) **– to set spurs to smth.**

TEZ-TEZ

tez-tez – often and often

TEZ-TƏLƏSİK

tez-tələsik (təcili) **– with the greatest possible speed / in a great haste / in a rush**

tez-tələsik bir yerə getmək – *Cf.* **to put one's best leg forward / to put one's skates on**

TƏBAŞİR

təbaşir dövrü – the Cretaceous period

təbaşirli kağız – an art paper

TƏBƏDDÜLAT

təbəddülat etmək – *bax* **sifət açmaq**

TƏBƏXXÜR

təbəxxür eləmək (izsiz-soraqsız itmək) **– to be vanished / to be disappeared**

TƏBİƏT

Təbiət boşluğu sevmir. = Nature abhors a vacuum.

təbiətcə (meylinə, həvəsinə, qabiliyyətinə görə) **– by nature**

təbiətin ağuşunda (açıq havada) **– in the bosom of nature / in the lap of nature / out in the great wide open / alone with nature / in the open air**

təbiətin qanunu (həyatda hər hansı bir hadisənin təbii olaraq baş verməsi) – **the course of nature** (the usual or natural way that something happens, develops or is done)

təbiətin şıltaqlığı (eybəcərlik, qeyri-adilik) **– caprice of nature / trick of nature / freak of nature**

TƏBİİ

təbii çiçəklər – a real natural flowers

təbiifəlakət (insan idarə edə bilmədiyi təbiətdə baş verən hallar barədə) – **an act of God**

təbii görkəmində – in the raw

təbii qəbul etmək (həyatda necə var elə də qəbul etmək) **– to take smth. in one's stride**

təbiidir (əlbəttə ki ...) **– no wonder / it is quite simple / there's nothing strange about that / come natural to someone**

TƏBİL

təbil zarı (qulaqda) **– an ear-drum** (tympanic membrane)

TƏCƏLLA

təcəlla olmaq *Arab.* (olmaq, işıq üzü görmək) **– to come out / to appear** (to be published, to be issued)

TƏCİLİ

təcili yardım maşını – an ambulance

TƏCRÜBƏ

Təcrübə ağır zəhmət ilə qazanılır, lakin maymaqların (giclərin) təcrübəsi heç zaman olmur. – * Experience keeps a dear school, but fools learn in no other.

Təcrübəmüdrikliyin anasıdır. – * Experience is the mother of wisdom.

***Təcrübə yüksəlişin qanadıdır. –** *Lit.* **The experience is the wing of the progress. /** *Cf.* **The experience is the high step of the development.**

təcrübəli olmaq (qabiliyyətli, bilikli, bacarıqlı olmaq) **– someone has a good nose for smth. / someone has got his eye in / someone has seen much in one's life / someone has seen a thing or two in one's time / someone has seen a few things before / someone has an eye for such things / someone has been around / to be down-to-earth** (to be an experienced)

təcrübəsiz cücə (təcrübəsiz cavan insan) **– (as) green as a gooseberry / a callow fledgeling / a greenhorn**

TƏDBİR

tədbir görmək (hərəkət etmək) **– to take measure**

tədbir görməmək (hərəkətsiz olmaq) **– not to take measure / to lie dormant**

tədbirli olmaq (bir şeyi araşdırmaq, yoxlamaq) **– to test the waters** (to find out what the situation is before doing something or making a decision)

TƏDQİQ

tədqiq edilməmiş, öyrənilməmiş bir şey – an obscure place (passage,*etc.*) **/ blank** (of smth. unexplored, uninvestigated, *etc.*)

TƏDRİCƏN

tədricən – little by little / as / bit by bit (gradually)

TƏƏCCÜB

təəccüb doğurmaq – to raise an eyebrow

təəccüblü bir şey yoxdur (tamamilə təbiidir) **– it's perfectly simple / as a matter of course**

təəccüblü deyil – small wonder / no wonder (not surprising)

Təəcüblüdür! – It is strange! / It is funny!

TƏƏSSÜF

təəssüf! (məyus olanda)**– well! / there! / oh, really! / well, I never! / that's a nice thing for you**

təəssüf yaratmaq (bir kəsdə pis təəssürat qoymaq)**– to cut a figure**

TƏƏSSÜRAT

təəssüratları ilə bölüşmək – to compare notes

TƏFAVÜT

təfavütü yoxdur (hamısı bərabərdir) **– as much as to say**

TƏFSİLAT

təfsilatı ilə (bütün xırdalıqları ilə, təfərrüatı ilə) **– at length / to give a detailed account of smth. / to report on smth. in detail**

təfsilatına varmadan (dərinliyinə getmədən) **– at large** (in general, generally)

təfsilatına varmaq – 1. (səbəbini öyrənmək) **– to go into the whys and the wherefore; 2.** (xırdaçılıq etmək, boş şeyə görə mübahisə etmək) **– to split hairs**

TƏHƏR

təhər çəkmək – 1. (bir işlə bacarmaq qabiliyyəti barədə) **– to make short work of smth.; 2.** (qaydasına qoymaq) **– to set one's affairs in order / to put smth. in good order**

TƏHQİR

təhqir (məcburiyyət qarşısında alçaldıcı təhqirə susmaq) **–** * **a bitter pill for someone to swallow**

təhqiri udmaq (təhqirə dözmək) – **to eat crow / to eat humble pie**

TƏHLÜKƏ

təhlükə altında olaraq – on pain of smth. / under penalty of smth. / in deep water / *Amer.* **on the line**

təhlükə başının üstünü aldı (alıb) – the clouds are gathering (continue to gather) above someone or smth. / someone or smth. is under a threatening cloud

təhlükədən kənar (təhlükəsiz) **– out of the wood**

təhlükədən qorxmayaraq hərəkət etmək – 1. (var gücü ilə tədbir görmək) **– to go for broke; 2.** (riskə getmək) **– to take a chance** (to risk it)

təhlükəli addım atmaq – to leap in the dark

təhlükəli an (ölüm-itimə, müflis olmağa yaxın olmaq) **– a narrow escape / a narrow shave**

təhlükəli yer – * a black spot (a dangerous place)

təhlükəli vəziyyət – a near thing / a tight corner / a tight fix / a tight squeeze

təhlükəli vəziyyətdə – out on a limb / on a thin ice (in a risky position)

təhlükəli yol (fəsadları olan, ağır nəticəli yol) **– the slippery slope**

təhlükəni hiss etmək – to see the red light / breakers (or rocks) ahead

təhlükəsiz – * out of the woods (out of danger)

TƏXƏRRÜŞƏ

təxərrüşə gətirmək (dilxorluğa əsas olmaq, ikrah, ədavət hisslərini oyatmaq) **– to prick one's eyes / to offend the eye**

TƏXİRSİZ

təxirsiz (olaraq, dərhal) **– at once / rushly / right away**

TƏXMİNƏN

təxminən – * in round numbers

təxminən eyni (təqribən eyni) **– * much of a muchness**

TƏXMİNİ

təxmini desək – rougly speaking

təxmini hesabat aparmaq – * to chalk on the barn-door

təxmini olaraq (təqribi, təqribən) **– in idea / as it was intended** (planned, timed, *etc.*)

TƏK

Tək atdım, cüt vurdum. – Kill two birds with one stone.

Tək əldən səs çıxmaz. – *Lit.***One man in the field is no warrior. /** *Cf.* **One man no man. / One man does not make a team. / The voice of one man is the voice of no one.**

TƏKAMÜL

Təkamül həyatın anasıdır. = A good beginning - is a half of matter.

TƏKBAŞINA

təkbaşına mübarizə aparmaq (bir şeyə təkbaşına nail olmağa çalışmaq) **– to sink or to swim** (to succeed or fail by one's own efforts, without help or interference from anyone else)

TƏKBƏTƏK

təkbətək (şahidsiz, kənar insansız) **– tete-a-tete / cheek by jowl / in private / alone / face to face with smb. / heart to heart / confidentially**

TƏKƏBBÜRLÜK

təkəbbürlük (davakarlıq) **– a chip on the shoulder** (of a supercilious man)

TƏKƏR

təkər üstündə olmaq (avtomobili idarə etmək) **– to have wheels** (*i.e.* a car)

təkəri geri fırlanır (bir kəsin bəxti gətirmir) **–** *Lit.* **one's fate betrays someone**

təkəri geri fırlanmaq (bəxti gətirməmək) **– someone is out of luck**

təkərlər üstündə yaşamaq (daimi yaşayış yeri olmamaq) **– to live out of a suitcase**

TƏKİ

təki Allah deyən olsun (kaş belə olsun) **– God forgive you / let it pass / never mind / forget it**

Təki hər şey yaxşı qurtarsın. – All is well that ends well. / The end crowns the work.

Təki ürək geniş olsun. – *Lit.* **Crowded, but not aggrieved. /** *Cf.* **The more the merrier. / Plenty is no plague. / There's always room on top of us (at the top, at the bottom). / It never troubles a wolf how many sheep there are.**

TƏKİD

(bir kəsin) **təkidilə** (bir kəsin təklifi ilə) **– on someone's initiative / at someone's suggestion**

TƏKLİF

təklif irəli sürmək – to submit a proposal / to move a proposal

TƏK-TƏK

tək-tək satılan mallar – * a job lot

TƏK-TƏNHA

tək-tənha – all alone in the world / all by oneself / having not a soul in the world

tək-tənha qalmaq (bayıra çıxmadan yaşamaq) **– to live in seclusion / to keep oneself to oneself**

tək-tənha olmaq – to keep aloof / to be an outsider / to keep oneself at a distance

TƏK-TÜK

tək-tük (çox az, nadir halarda)**– once in a blue moon** (very rarely, very seldom, almost never)

tək-tük hallarda – *bax* **ayda-ildə bir dəfə**

TƏKZİBEDİLMƏZ

təkzibedilməz dəlil (mübahisəsiz sübut) – **a smoking gun**

TƏLAŞ

tələş salmaq (təşviş, vəlvələ, çaxnaşma, həyəcan) **– to spread a confusion**

tələşə düşməmək (çətinliklə qorxmadan üzləşmək) **– to face the music**

TƏLATÜM

tələtümdə yaşamaq (rahatçılığı, sakitliyi olmamaq) **– to sit on a volcano**

tələtümlü gecə keçirmək (gecə yatmamaq, fəal həyat yaşamaq) **– to make a night of it**

TƏLƏ

tələ qurmaq = to make a trap

Tələ yeminə baxarsan, tilova düşərsən. – The bait hides the hook.

tələsinə salmaq = to entrap someone

tələyə düşmək (çətin, çıxılmaz vəziyyətə düşmək) **= to fall into a trap / to jump at the bait / to have one's back to the wall** (to be in a trap, with no way to escape, to be in bad trouble)

tələyə düşmüş canavar kimi (çıxılmaz və ya çətin vəziyyətdə olaraq) **–at bay**

TƏLƏB

tələblərəcavab vermək (münasib olmaq, yararlı olmaq, uyğun gəlmək) **– to fit the bill / to fill the bill** (to be what is needed in a particular)

TƏLƏBAT

tələbatda olmaq (insanlar ehtiyac duyduğu bir şey barədə) – **to be in demand**

TƏLƏBƏ

tələbələr – the students

TƏLƏF

tələf olmaq (məhv olmaq) **– go to hell! / go to the devil! / go to blazes! / go to the dogs! / go down the drain! / go to the devil and dogs!**

TƏLƏSDİRMƏK

tələsdirmək – * to get one's skates on/ to rush someone off his feet

TƏLƏSƏN

Tələsən ayaq büdrər. = *Lit.* **More haste, more men laughed at you. – The more haste, the less speed. / Fool's haste is no speed. / More haste less speed. / Haste makes waste. /** *Cf.* **The furthest way about is the nearest way home.**

Tələsən təndirə düşər. – *Lit.* **Don't rush into Hell before your father. /** *Cf.* **Don't run before your horse to market. / Don't leap over the hedge before you come at the stile. / Throw the baby out with the bathwater.**

Tələsən tündlüyə düşər. – Abrupt attempts are sure to fail. / Take heed will surely speed. / Haste makes waste. / *Cf.* **Sooner said than done.**

Tələsən yolda qalar. – Hasty climbers have sudden falls.

TƏLƏSİK

tələsik hərəkət etmək (hadisələrin axınını sürətləndirmək) **– to rush one's fences**

tələsik nəticə çıxartmaq (dərindən düşünmədən) **– * to jump at a conclusion**

TƏLƏSMƏK

tələsmə! – * **take your time!** (do not hurry, do something as slowly as necessary)

tələsmək (zirək olmaq) **– to make haste** (to hurry)

TƏLXƏK

təlxək (oyunbaz) **– a buffoon / a clown / a tomfool / a jester / a laughing-stock**

TƏLİMAT

təlimatı rəhbər tutaraq – * **go by the book**

TƏLQİN

təlqin olunmaq *Arab.*(yeridilmək, bir kəsin təsiri altına düşmək) – **at someone's bidding** (just because one is told by someone)

TƏMAS

təmas nöqtəsi = a point of contact

TƏMƏL

təməl daşı (güşə daşı) **– a cornerstone / a foundation stone / a basic principle / an essential part**

TƏMƏNNA

təmənna ilə (müəyyən niyyətlərlə, fikirlərlə, qərəzlə)**–** * **in bad faith**

təmənnalı məhəbbət – a cupboard love (about mercenary relation)

təmənnalı nigah (razılaşma ilə nigah) **–** *Fr.* **a marriage of convenience**

təmənnalı sevgi – *bax* **təmənnalı məhəbbət**

təmənnasız (təmiz ürəklə, qəlblə, fikirlə, qərəzsiz) **–** * **in good faith**

təmənnasızlıq – a labour of love

TƏMİN

təmin olunmamış yaşayış – an ill-provided existence

təminatsız adam – someone has no regular livelihood

TƏMİZ

təmiz (əsl) **– exactly the same / the very image (picture, spit) of someone (real, genuine)**

Təmiz ad hər şeydən üstündür. =A good name is better than riches.

Təmiz ad var-dövlətdən yaxşıdır. – *bax* **Təmiz ad hər şeydən üstündür.**

təmiz adam olmaq (həyatda özünü düz aparmaq, yaxşı adam olmaq) **– to have one's heart in the right place**

Təmiz adama zaval yoxdur. – *bax* **Təmiz əlin yuyunmağa ehtiyacı yoxdur.**

Təmiz adı itirmək asandır, nəinki onu qorumaq. – * A good name is sooner lost than won.

təmiz adı qorumaq (öz hörmətini, nüfuzunu saxlamaq) **– to save one's face**

təmiz adını bərpa etmək – *bax***bəraət qazanmaq**

təmiz başla (yorulmamış) **– with a clear head / with a clear (fresh) mind / with fresh eyes**

Təmiz əlin yuyunmağa ehtiyacı yoxdur. – A clean hand wants no washing.

təmiz əllər (düzlük, şöhrət, namusluluq mənasında) **– clean hands / Mr. Clean**

təmiz hava almaq (təmiz hava ilə nəfəs almaq) **– to take the air**

təmiz həqiqət – God's truth / the naked truth

təmiz insan – 1. (təmiz qəlbli) **– pure in heart; 2.** (bəziləri təsəvvür elədiklərindən pis adam olmamaq) **–** * **not so black as one painted**

təmiz mal (əsl, original) **– a real product**

təmiz oğlandır (üzügülər, sadədil, ürəyiaçıq) **– a straightforward (plain) fellow /** *Cf.* **he wears his heart on (upon) his sleeve / happy-go-lucky fellow / a good sport /** *Amer.* **a good egg /** *Amer.* **a good onion / a broth of a boy**

təmiz oyun – 1. (qabaqcadan şərtləri danışılan oyun) **= a fair play; 2.** (düzgün siyasət) – *Amer.***the high road**

təmiz oyun oynamaq (bir kəslə özünü düz aparmaq) **– to play the game**

təmiz söhbət (açıq-danışma, düzgünlük, doğruluq) **– a plain dealing**

təmiz ürəklə – 1. (rahatlıqla, saf niyyətlə) **– with an open heart; 2.** (insafla, ədalətlə) **– to do smth. with an easy (clear) conscience**

təmizə çıxarmaq (nəyisə müəyyən etmək, üzə çıxarmaq) **– to bring smth. to light**

təmizə çıxartmaq (kifayyət qədər sübut olmadığına görə bir kəsə bəraət qazandırmaq) **– to give someone the benefit of the doubt**

təmizə çıxmaq – *bax* **təmiz adını bərpa etmək**

TƏMKİN

təmkinli olmaq (sakitliyi saxlamaq) **– to keep one's wits / head about someone** (to stay calm when there is trouble or danger)

TƏN

tən bölünmüş alma kimi – *bax* **iki damcı su kimi**

TƏNASÜL

tənasül orqanları (cinsiyyət orqanları) –*Cf.* **privates / stones / seeds / nuts** (genitalia, genitals)

TƏNBƏL

tənbəl (avara) **– lazy-bones / good-for-nothing**

Tənbəl həmişə "xəstəyəm" deyər. – For a fool every day is holiday.

tənbəllik etmək (uzanmaq, iş görməmək, heç nə etməmək) **– to be lying like a log**

tənbəllikdən düşmənini "dayı" demək (heç bir işə yaramamaq) **– not to be able to do something save own life** (to be completely unable to do something)

TƏNƏ

